


# İMAM HÜSEYNİN (Ə) BƏŞƏRİYYƏTƏ VERDİYİ DƏRSLƏR

**İmam Hüseyn (ə) hər bir məsum imam kimi bizə dəyərli dərslər və ibrətlər vermişdir. İmamın bizə verdiyi altı ibrətli dərslə tanış olaq:**

1) Aşura günü haqq ordusu ilə batil ordusu vuruşurdu. Əziz İmam Hüseyn əvvəldən axıradək haqqı bəyan edir və batili ifşa edirdi.

İmamın bəzi buyuruqlarına diqqət edək: “Zillət bizdən çox-çox uzaqdır”.

Düşmən qoşunundan bəzisi İmam Hüseynin şəhid olmasını güman edib, xeymələrə hücum etmək istədikdə imam fəryad edib buyurdu: “Əgər dininiz yoxdursa və Qiyamətdən qorxmursunuzsa, heç olmasa azad kişi olun (dünyada qeyrətiniz olsun)”.

Aşura günü İmam Hüseyn düşmənə buyurdu: “Yox! And olsun Allaha! Nə (zilləti qəbul edib) zəlillər kimi sizə təslim olaram, nə də qullar kimi qarşınızdan qaçaram”.

Aşura günü İmam Hüseyn (ə) buyurdu: “Agah olun, bilin ki, bu zinazadə oğlu zinazadə (ibni Ziyad) məni iki seçimin arasında saxlayıb: ya zəlilcəsinə beyət edim, ya da qılıncla doğranım. Halbuki zillət bizdən çox-çox uzaqdır!”.

“Ölüm alçaqlıqdan yaxşıdır”.

“İzzətlə ölmək zillətlə yaşamaqdan yaxşıdır”.

“Həqiqətən, mən ölümü səadət, zalımlarla yaşamağı isə alçaq-lıqdan başqa bir şey bilmirəm”.

“Məni ölümləmi qorxudursunuz? Afərin, Allah yolundakı ölü-mə!”.

İmam Hüseyn buyurub: “Əgər bir şəxs bizim fəryadımızı eşidə, ya bizim qaraltımızı görə, amma bizə kömək etməyə və fəryadımıza yetişməyə, Allahın haqqı vardır ki, onu üzü üstə cəhənnəmə atsın”.

Aşura günü İmam Hüseyn buyurub: “Mənə kömək edəcək bir köməkçi varmı? Mənə yardım edəcək bir yardımçı varmı? Peyğəmbərin itrətini (Əhli-Beytini (ə)) müdafiə edəcək bir müda-fiəçi varmı?”.

İmam Hüseyn buyurub: “Pərvərdigara, Sənin qəza-qədərinə razıyam və Sənin əmrinə təslimən. Səndən başqa məbud yoxdur, ey fəryad edənlərin fəryadına yetən!”.

2) Namazın əhəmiyyəti. Döyüşün ən alovlu yerində namaz vaxtı gəlib çatır. Ancaq düşmən namaz qılmağa fürsət vermir.

İmam Hüseyn Zuheyr ibni Qeynə və Səid ibni Abdullaha əmr edir ki, namazqılanların qabağında dayanıb, özlərini qalxan etsinlər. Həzrət bu halda namazını qılır.

3) Sadiqlik. Bir gün Hatəm Tainin oğlu Ədi İmam Hüseynin yanına gəlir və deyir: “Ey Əba Abdullah, zillətlə izzəti mübadilə etdiniz (İmam Həsənlə Müaviyyənin müqaviləsini nəzərdə tutur) və öz əzəmətinizi əldən verdiniz. Bizlərin hamısı sizin vasitənizlə müti olduq və bir ömür gərək müxaliflik edək. Gəl qardaşın Həsəni və sülh müqaviləsini burax, davamçılarını Kufədən və başqa şəhərlərdən topla.

İmam Hüseyn cavabında buyurur: “Biz əhd bağlamışıq və onu sındırmağa yol yoxdur. Əhdi sındırmaq bizim üslubumuz deyildir”.

4) Dönməzlik və yenilməzlik. O zaman ki, İmam Hüseyn Kərbəlaya daxil olur, məlun Übeydullah ona məktub göndərir. İmam məktubu alır, oxuyur və parçalayır. Yerə atıb, buyurur: “O insanlar ki, məxluqun razılığını Xaliqin razılığından üstün bilərlər, heç bir zaman müvəffəq olmayacaqlar”.

5) Abırı çox üstün tutmaq. Bir gün şairlərdən biri İmam Hüseynin məclisinə daxil olur və şeir oxuyub, Əhli-Beyti mədh edir. İmam ona 400 dinar hədiyyə edir. Bir nəfər etiraz edib deyir: “Axı o, fasiq şairdir?”.

Həzrət buyurur: “Ən yaxşı mal və sərvət odur ki, insanın abrını qoruyar. Peyğəmbər də şair Kəab ibni Zuheyrlə bağlı belə etmişdi”.

6) Quranın tanıdılması. İmam Hüseyn bütün hərəkat boyu müqəddəs Kitabı təbliğ edirdi. Hətta şəhid olandan sonra da, mübarək başı Quran tilavət edirdi...

İmam Hüseyn söhbətlərinin birində Quranı dörd hissəyə bölür: sözlər və ibarələr, işarələr və metaforalar, rəvayətlər və dastanlar, həqiqətlər.

1. Sözlər və ibarələr adi insanlar üçündür;
2. İşarələr və xəbərlər bunun əhli (məlumatlı olanlar) üçündür;
3. Rəvayətlər övliyalar üçündür;
4. Həqiqətlər nəbilər və vəsilər üçündür.

# İNTİZARDA OLANLARIN

# AŞURA MƏKTƏBİ

السلام على الحسين وعلى علي بن الحسين وعلى أولاد الحسين وعلى أصحاب الحسين



*Bismilləhir-Rahmənir-Rahim!*

***Həmd olsun Allaha ki, bizlərə Məhərrəm-Səfər əyyamını dərk edib, yaşatmaq tofiqatını nəsib edib. Bunun şükürünü həyata keçirmək üçün bir ömür çalışmaq belə yetməz.***

***Ötən bəhsimizdə Aşuranı, Kərbəla çölündə baş verənləri anlamaq üçün Əhli-beyt (ə) məktəbinin 3 mühüm sütununu dəqiq anlamaq lazım olduğunu vurğuladıq. Ayrı-ayrılıqda Aşuranı, Kərbəlada baş verənləri götürdükdə, bu 3 sütunun arasından çıxartdıqda mənzərə tam olaraq yaranmır. Aşuranı anlamaq üçün Qədir-Xumu, Kərbəlada baş verənlərin mahiyyətini və Zühuru anlamaq lazımdır. Əhli-beyt (ə) davamçısının imanı və etiqadı bu 3 sütunla bağlıdır, ruhiyyəsi bu 3 sütundan irəli gələn məsələlərlə yoğrulub.***

### Aşuranı və Qədir-Xumu dərk etmək üçün nübuvvəti anlamaq lazımdır

Sözsüz ki, Qədir-Xumu anlamaq və başa düşmək üçün də öz növbəsində nübuvvəti anlamalıyıq. Çünki, Qədir-Xum baş verməsəydi, Qədir-Xumda Həzrət Əlinin (ə) vilayəti, rəhbərliyi elan olunmasaydı, Qədir-Xumda Peyğəmbərdən (s) sonra da İlahi imamətin, İlahi rəhbərliyin davam etdirilməsi çatdırılmasaydı, nübuvvət (peyğəmbərlik missiyası) həyata keçməmiş qalırdı. Bu, Qurani-Kərimin öz ayəsidir. “Maidə” surəsinin 67-ci ayəsində buyurulur: “Ya Peyğəmbər! Allah tərəfindən sənə nazil olanı (camaata) çatdır. Əgər (bunu) etməsən, Onun risalətini yerinə yetirməmisən..”.

Allah Təala Rəsulallaha (s) xüsusi tapşırıq verir. Hətta vəziyyət bu qədər ciddi olur ki, əgər bu, baş verməsə, nübuvvət həyata keçməmiş olacaq. Bu baş verəndən sonra, Uca Allah artıq dinin kamil hala gəldiyini, İslamı din olaraq bəyəndiyini çatdırır. Bu haqda “Maidə” surəsinin 3-cü ayəsi nazil olur: “...Bu gün kafirlər sizin dininiz(i məhv edib aradan apara biləcəklərin)dən ümidlərini kəsiblər. Odur ki, onlardan qorxmayın, Məndən qorxun.

Bu gün dininizi sizin üçün kamilləşdirdim, sizə Öz nemətimi tamamladım və (möhkəm və sabit) bir din kimi sizin üçün İslamı qəbul etdim ...”. Vilayətin elanı ilə din kamala çatır və nemətlər tamamlanır. Ona görə də, Qədir-Xum günü baş verənləri anlamaq üçün gərək nübuvvət dərkimiz olsun. Nübuvvətsiz təbii ki, vilayəti anlamaq mümkün deyil. Vilayətin kökündə Besətin başlanğıcı, Məkkə dövrü, hicrət, Mədinə dövrü, təbliğatın yeni mərhələyə keçməsi və İslamın yayılma coğrafiyası dayanır. Hətta Rəsulallahın (s) son peyğəmbər kimi gəlişini anlamaq üçün bütün öncəki peyğəmbərlərin (ə) gəlişlərindəki hədəfi, məqsədi anlamaq lazımdır. Sözsüz ki, bunları anlamağın da bünövrəsində Tövhidi (tək olan Allaha etiqad sistemini) anlamaq dayanır. Bu etiqaddan irəli gələrək biz qəbul edirik ki, Rəbbimiz elçilərini, nəbilərini bəşəriyyətə, insanlığa necə yaşamağı öyrətmək üçün göndərib.

### Nəbilər (ə) niyə gəlib?

Nəbilər (ə) - İlahi peyğəmbərlər gəlməsə, bizim yaradılışımız, mövcudiyyətimiz, iradəli olmağımız, seçimli yaşamağımız mənasız olur. Çünki, bizi yaradan Allah, bizə necə yaşamağın yollarını göstərməyə bilməz. Buna görə də, nəbilər gələrək insana seçimli həyatında hansı seçimlər etməsi ilə bağlı bilgi və məlumat verir. Hədislərdən məlum olur ki, cəmi 124000 peyğəmbər (ə) gəlmişdir. Yüz iyirmi dörd min peyğəmbərin (ə) sonuncusu olan Rəsulallaha (s) Qədir-Xum günündə göylə yerin bağlantısının davam edəcəyi barədə mesaj verilir. Rəsuli-Əkrəmə (s) deyilir ki, ondan sonra yerlə göyün bağlantısı İmam Əlinin (ə) mübarək şəxsiyyəti ilə davam edəcək. Rəsuli-Əkrəm (s) vəzifələndirilir ki, insanlara, müsəlmanlara, iman əhlinə vilayətə - İlahi rəhbərliyə ehtiyaclılığın mahiyyəti çatdırılsın və vilayətə bağlantının zəruriliyi çatdırılsın. İnsanlar Rəsulallahdan (s) sonra İlahi tövsiyəsiz, köməksiz qala bilməzlər. Buna görə də, Rəbbimiz ayədə bildirir ki, əgər bu məqam insanlara çatdırılmasa, din tamamlanmamış qalacaq.

Deməli, Qədir-Xum günü olmasa, Həzrət Əlinin (ə), Əhli-beytin (ə) vilayəti elan olunmasaydı, bütün yüz iyirmi dörd min peyğəmbərlərin (ə) gətirdikləri, çatdırdıqları natamam qalacaqdı. Qədir-Xumun bu dərəcədə əhəmiyyəti var. Qədir-Xum da yalnızca Həzrət Əmirəlmömininin Əli (ə) ilə bağlı məsələ deyil. Qədir-Xum o deməkdir ki, vilayət, imamət və İlahi rəhbərlik davam edir. Necə ki, Rəsulallah (s) dövründə insanlar, müsəlmanlar onu İlahi imam kimi qəbul edirdi, elə də Peyğəmbərdən (s) sonra İlahi vilayət var və insanlar onu qəbul etməlidir. Belə olmasa, İslam kamil halda və nemətlər tamamlanmış halda ixtiyarımızda olmayacaq.

## Hər gün vilayətin elanı günü, hər yer Qədir-Xumdur

Necə ki, hər gün Aşuradır və hər yer Kərbəladır, elə də hər gün vilayətin elanı günü, hər yer Qədir-Xumdur. Necə ki, həyatımızın hər səhnəsində "Hər gün Aşuradır, hər yer Kərbəladır" şüarına yer etmişik, elə də "Hər gün vilayətin elanı günü, hər yer Qədir-Xumdur" şüarı həyatımızda öz əksini tapmalıdır. Biz hər gün yerlə göyün bağlantısına beyət etməliyik. Həm nəzəri, həm də praktiki olaraq hər günümüzdə Qədir-Xum yer almalıdır.

Axırıncı İmamın - Həzrət Mehdi Sahib-əz-Zamanın (ə.f) zühurunun intizarında olanın - Zühur müntəzirinin mükəlləfiyyətlərinin bünövrəsində iki mühüm rəng var. Biri Qədir-Xumda vilayətə mərifət, o biri isə Aşurada vilayətə əməli şəkildə sahib çıxmaqdır. Qədir-Xum - vilayətə mərifətin olması, vilayətin dərki, vilayətin təsdiqidirsə, Aşura - vilayətə əməli şəkildə bağlantıdır. Müntəzir üçün bunun əhəmiyyəti ondan ibarətdir ki, Mövla (ə.f) zühur edəndə Allahın razı olduğu təlim, Allahın razı olduğu durum yer üzərində bərqərar olacaq. Mövlanın (ə.f) zühuru ilə Qədir-Xumda elan olunmuş din - nemətləri tamamlanmış, kamala çatmış və Allahın razı olduğu din yer üzərində bərqərar olacaq.

## Aşura ilə Qədir-Xumun ciddi fərqi

Aşura ilə Qədir-Xumun oxşarlığı çoxdur. Hər ikisinin mahiyyətində İlahi vilayət dayanır. Amma, bunların arasında fərq də çox ciddidir. Birində İlahi vilayətə beyət edənlərin kəmiyyəti çox olur, keyfiyyəti az olur. Qədir-Xumda çox adam vilayətə beyətini iqrar edir, amma az adam bu əhdə vəfalı qalır. Aşurada isə kim gəlirsə, sona qədər qalır. Kərbəla qəhrəmanlarından, İmam Hüseynin (ə) ardıcıllarından kim o Həzrətin dəstəsində olursa, axıra qədər qalır. Qədir-Xumda gələnlər elə bilirdilər padşahlıq olacaq və onlar da padşahlıqdan bəhrə aparacaqlar, burada imtiyazlar, məqam olacaq və onlar də adlarını indidən həmin dəftərə yazdırmaq istədilər. İkincidə - Aşurada isə dəqiq bilirlər ki, Yezid (lən) hakimiyyətə necə gəlib, gözəl bilirdilər ki, məlun Yezid kimdir, nəkarədir, onun zülmü hamıya məlum idi. Atası Müaviyyəni (lən) də hamı yaxşı tanıyırdı. Oğlu atasından da bərbad vəziyyətdə idi. Müaviyyə (lən) heç olmasa vilayi ruhiyyənin yaşaması üçün zahirdə kiçik nəfəslik qoymuşdu. Yezid (lən) isə heç nəfəslik də qoymur, hamını qılıncının altından keçirtmək




istəyir.

Bu yerdə İmam Huseyn (ə) bunun mümkünsüzlüyünü elan edir. İmam Hüseynin (ə) o məluna beyət etməsi, Yezidin (lən) qılıncın altından keçməsi - İslamın "fatihə"sinin verilməsi demək olacaqdı. Əba Əbdillaha (ə) qoşulanlar da bunu bilirlər. Bilirlər ki, Əba Əbdillah (ə) elə bir yola çıxıb ki, bu yolun sonu şəhadətə gedir. Onlar yola çıxarkən öz qanları ilə Rəbblərinə bəndə olmaqlarına imza atmağa çıxmışdılar. İslamı Qiyamət gününə qədər sığortalamaq üçün onlar yola çıxmışdılar. Qədir-Xumla Aşuranın ən ciddi fərqi məhz budur.

Böyük İslam alimlərindən birinin təbiriycə desək, əslində Qədir-Xumun müsibəti bu mənada Aşura müsibətindən daha da çoxdur. Həzrət Əlini (ə) evində xanənişin (evdən bayıra çıxmayan) etdilər, haqqını qəsb etdilər. Amma əvvəl çoxluq onun yanında idi. Amma Əba Əbdillahın (ə) yanında şəhadət yoluna çıxan zaman kimlər var idisə, sonadək o Həzrətlə oldular.

## İmamını tanımadan ölən cahiliyyət ölümü ilə ölər

Zühurun da Qədir-Xumla bağlantısına toxunduq. Bu bağlantı - mərifəti bağlantıdır, dərketmə bağlantısıdır. Zühur dönəmində bərqərar olacaq Allahın razı olduğu din - vilayi bünövrəli din olmalıdır. Çünki, İslam məhz o zaman Allahın razı olduğu hala gəlib çatıb.

Aşura ilə Zühurun əlaqəsinə dair isə dedik ki, Aşura günündə Həzrət İmam Huseynin (ə) ardıcıllarının İmamlarını (ə) tanıdığı, müdafiə etdiyi, vəlilərinin yolunda qanlarını tökməyə qədər getdiyi kimi, Zühur dönəminin müntəzirləri də Həzrət Mehdi Sahibəz-Zaman (ə.f) ilə bağlı bu həddə çatmalıdırlar. Əgər müntəzirlər o həddə çatsa, artıq hər şey qaydasında olar.

Əziz İslam Peyğəmbəri (s) buyurur: "Kim İmamını tanımamış ölsə, cahiliyyət ölümü ilə ölüb". Digər yerdə Rəsulallah (s) buyurur: "Kim İmamı olmasa ölsə, cahiliyyət ilə ölüb".

Həzrət Əmirəlmöminin (ə) buyurur: "İmamət - ümmətin işlərinin nizamıdır". İmamət olmasa, ümmətin işləri qaydaya düşməz. İmamı (ə) tanımasaq, bu dünyadan cahiliyyət dönəminin insanı kimi gedərik. Bu, hər zamana birbaşa aid olan məsələdir. Namaz qıl, oruc tut, amma vilayət ruhiyyən olmasın - bu vəziyyət insanı cahiliyyət durumundan çıxartmayacaqdır. Birinci cahiliyyəti Rəsulallah (s) aradan apardı. İkinci cahiliyyəti isə əziz Zəmanə Sahibi (ə.f) aradan aparacaq. Birinci cahiliyyət dövrünün bütləri canlı deyildi və təhlükələri özlərindən birbaşa gəlmirdi. Zamanın bütləri,

modern bütləri isə özləri canlıdırlar, özləri təşkilatlanıblar, təsisatlanıblar.

### İmam Huseyn (ə) Kərbəlanı belə tanıdır

Məhərrəm-Səfər əyyamının önəmli günlərini geridə qoyduq. Məhərrəmin əvvəl günlərinin əsas nöqtələrindən biri budur ki, Əba Əbdillah (ə) öz eşq karvanı ilə Kərbəlaya çatır. Buyuruşlarda var ki, Əba Əbdillah Kərbəla torpağına məhərrəm ayının 2-də çatır. Buyurulur ki, İmam Huseyn (ə) öz səhabələri ilə yol gedirdilər ki, bir məntəqəyə çatdılar. Orada yaşayan bir dəstə insandan bu məntəqənin adını soruşdular. Onlar "Şəttun-fərat" cavabını verdilər. Həzrət (ə) buyurdu: "Bu məntəqənin bu addan başqa adı da varmı?" Cavab verdilər: "Kərbəladır". İmam Huseyn (ə) buyurdu: "Allaha and olsun ki, bu torpaq kərb və bəla torpağıdır". Sonra buyurdu: "Bu yerin torpağından mənə bir ovuc verin". Sonra torpağı alıb iylədi və yaxasından bir qədər torpaq çıxararaq buyurdu: "Bu, həmin torpaqdır ki, cənab Cəbrayıl (ə) Allahın tərəfindən cəddim Rəsulallah (s) üçün gətirərək deyib ki, bu torpaq - Hüseynin (ə) torpağındandır". Sonra o torpağı yığaraq buyurdu: "Hər iki torpağın eyni ətri var".

### Həzrət Peyğəmbərin (s) səhabəsi cənab Salmanın (r.ə) Kərbəlaya gəlişi

Çox nurani nöqtələrdən biri budur ki, Həzrət Peyğəmbərin (s) səhabələri də Kərbəlanı tanıyardılar. Cənab Salman (r.ə) Əmirəlmöminin (ə) tərəfindən məmuriyyət alaraq Mədainə yollanmışdı. Salmanın (r.ə) xüsusi bir cəhəti var idi ki, miniyə bütün yolu minməzdi. Bir miqdar gedərdi, sonra həmin miqdarda piyada gedərdi. Növbəti yerə çatdılar ki, miniyə mindi və yoluna davam etmək istədi. Elə bir miqdar hərəkət etmişdilər, yol yoldaşları gördülər ki, Salman (r.ə) aşağı enir. Tam özünü itirmiş, heyrət halında torpağın üstünə özünü atdı və yeri qucaqladı. Göz yaşları sel kimi axırdı. Salmanla gedən müsəlmanlardan biri nəql edir: "Kərbəla adlnan yerə çatdığımız vaxt Salman həmin yerin adını soruşdu. Bildirdik ki, bu yer Kərbəla adlanır. O dedi: "Bəli, bu yer mənim qardaşlarımın qətlə yetiriləcəyi məkandır. Bax bura xeymələrin qurulacağı, bura isə dəvələrin duracağı yerdir. Bax, burada isə onların qanları axıdılacaq", - deyə ayrı-ayrı məhəllələri göstərdi və sözünə davam etdi: "Keçmişin görkəmləri insanları bu yerdə qətlə yetirilmişdir. Gələcəkdə də bir çox görkəmli insanlar bu yerdə qətlə yetiriləcək". Kufəyə çatdığımız vaxt soruşdu ki, bu yer necə adlanır. Cavab verdik ki, Hərura. Buyurdu: "Keçmiş ümmətlərin ən pisləri bu yerdən çıxıb. İndi də ümmətin ən pisləri bu yerdən çıxasıdır". O, Nəhrivan şeyxlərini, xəvaricləri, təkfirçiləri nəzərdə tuturdu.

Allahım, bizlərə tövhidi, nübuvvəti və imaməti kamil şəkildə dərk etməyi nəsib et!

Allahım, bizləri həqiqi müntəzirlərdən qərar ver!

Allahım, aqibətlərimizi Əhli-beytə (ə) layiq et!

Allahım, torpaqlarımızın işğaldan azad olunmasını nəsib et! Amin!

Hacı İlqar İbrahimoğlu



# Aşura hadisəsini həmişəyaşar edən sirr nədir?

*Əbu Abdullah (ə) elə bənzərsiz bir vacib əməli yerinə yetirmək üçün qiyam etdi ki, ondan öncə heç zaman buna şərait yaranmamışdı. O, Mədinədən Kərbəlaya uzanan yol boyu həmin vacib əməli özünün məqsədi kimi izah etdi və bu yolu sona qədər davam etdirmək əzmində olduğunu bildirdi. Mübarək boğazından ucalan "Zillət bizdən uzaqdır" fəryadı tarix boyu izzət və iftixar mənbəyi olan həmin müqavimətin və dirənişin əks-sədası oldu.*

*İmam Hüseynin (ə) hərəkəti izzət hərəkəti idi; yəni haqqın izzəti, dinin izzəti, imamətin izzəti və Peyğəmbərin (s) qoyduğu yolun izzəti.*

*İmam Hüseynin (ə) bütün mərhələlərdəki rəftarı izzətlə, başucalığı ilə və eyni zamanda Pərvərdigarın qarşısında mütləq təslimçilik və bəndəliklə doludur; Mədinədə, Məkkədə, Kufə yolunda və Kərbəlada!*

*Yezidin zalım və qəddar hökuməti öz təbliğatı ilə Hüseyn ibn Əlini (ə) qınayırdı, onun ədalətli quruluşa və İslam hökumətinə qarşı, özü də dünya üçün qiyam etdiyini göstərmək istəyirdi. Bəzi adamlar bu yalan təbliğata inanırdılar. Hüseyn ibn Əli (ə) Kərbəla səhnəsidə cəlladlar tərəfindən faciəli şəkildə şəhid edildikdə də onu bir qələbə və zəfər kimi qeyd etdilər.*

*Buna görə mən dəfələrlə demişəm ki, bizim dövrümüzün şəhidləri Bədr şəhidləri, Hüneyn şəhidləri, Ühüd şəhidləri, Siffeyn şəhidləri və Cəməl şəhidləri ilə müqayisəolunasıdırlar, onların bir çoxlarından üstündürlər, lakin Kərbəla şəhidləri ilə müqayisəolunası deyillər.*

*Heç kəs Kərbəla şəhidləri ilə müqayisəolunası deyil; nə bu gün, nə dünən, nə İslamın əvvəlindən və nə də Allah-Taalanın bildiyi və istədiyi zamana qədər. O şəhidlər çox üstündürlər. Əli Əkbər və Həbib ibn Məzahir üçün başqa bir bənzər tapmaq olmaz.*

*Kərbəla bizim daimi örnəyimizdir. Kərbəla insanın düşmənin əzəməti qarşısında tərəddüdə düşməməsi üçün bir nümunədir. Bu, sınaqdan çıxmış bir örnəkdir.*

*...Aşura hadisəsini həmişəyaşar edən böyük sirr budur.*

*Ayətullah Xamenei*

# BÖYÜK AŞURA MƏKTƏBİ

***Aşura hadisəsindən 1300 ildən artıq zaman keçir. Lakin bu məktəb hələ də yaşamaqdadır. Çox nadir hallarda hansısa bir ideologiya və məktəb belə uzunömürlü olub. Aşura məktəbi hər zaman öz şagirdlərini maarifləndirməkdə böyük rola malikdir. Bu məktəbdə şagird olan insan İslamın həqiqətini anlayır. Bu məktəbin şagirdi Həzrət Məhəmmədin (s) gətirdiyi əsl İslam dinini tanıyır. Bir sözlə bu məktəb İslamın ruhlu bədənlə qalmasına səbəb oldu. Necə ki, bu haqda qeyri müsəlman alimi M. Marbini də qeyd edərək belə deyir; "Hüseyn (ə) ən əziz yaxınlarını qurban verməklə, dünyaya fədakarlıq və rəşadət dərsi verdi. İslam və müsəlmanlara şərəf və izzət bağışladı. Əgər Kərbəla müsibəti baş verməsəydi, şübhəsiz İslam və müsəlmanlar tarix səhifələrindən silinmişdi". Amma çox təəssüf ki, biz müsəlmanlar bu böyük məktəbə olduğu qədərində dəyər və qiymət verə bilmirik. Aşura deyəndə yalnız mərsiyə deyib sinə vurmaq fikrimizə gəlir. Bəli bu danılmaz faktdır ki, bir çox yerlərdə o cümlədən komunistin hakimiyyəti zamanı Gürcüstanda mərsiyə deyib və sinə vurmaq İslamın yaşamasında və yaddaşlardan silinməməsində böyük rolu olmuşdur. Lakin artıq elə bir zamanda yaşayırıq ki, bunlarla kifayətlənməməli və bu məktəbdən daha böyük hədəflər üçün istifadə etməliyik.***

Tarixə nəzər saldıqda görürük ki, bir çox zalım xəlifələr hakimiyyətə gəldikləri zaman əgər İslam dini ilə mübarizə aparmaq istəsəydilər əvvəl aşura məktəbi ilə mübarizə aparardılar. Bu məktəbi kamil surətdə insanlardan almağa nail də olmasaydılar ən azından onu ciddi surətdə zəiflətməyə nail olurdular. O da bu yolla ki, əzadarlıq məclisləri keçirilirdi amma aşura məktəbinin əsl mahiyyəti insanlardan gizlədilirdi. Amma artıq bu yuxudan oyanmalıyıq, aşuranı yalnız mərsiyə deyib sinə vurmaqla tanımamalıyıq və bunu insanlara çatdırmalıyıq. Hər gün aşuradır, hər yer Kərbəla məfhumunu zəmanəmizə tətbiq edib dərs almalıyıq.

Aşura məktəbindən hər nə qədər danışsaq da, hər nə qədər dərs alsaq da yenə də azdır. Bunlardan kifayətlənən insan sanki böyük bir alimdən əlifbanı öyrənməklə kifayətlənir. Aşuranın əhəmiyyətini bu cür vəsf edə bilərik ki, bu məktəb təqribən 14 əsrdir ki insanlara İslami maariflənmədə yardım edir.



Aşura məktəbinin dərslərinə nəzər saldıqda böyük və çox əhəmiyyətli olduqlarını görürük. O cümlədən:

**1. Azadlıq dərsi**

Bəşəriyyət yer üzünə ayaq basdığı andan ona nail olmaq üçün mübarizə aparır. Bəzən demokratiya adı altında buna nail olmaq istəyirlər, amma əlbəttə ki xaricdə, daxildə isə diktatura. İmam Hüseyn (ə) Yezidə beyət edib baş əyməməsi və öz qiyamı ilə azadlığın necə olduğunu bütün bəşəriyyətə anlatdı. Öz mübarək kəlamında da buna işarə edərək buyurur: "Dininiz də olmasa azad olun." İmamın verdiyi azadlıq dərsi haqda böyük hind alimi Mahatma Qandi qeyd edərək deyir: "Mən Hind xalqı üçün yeni bir ideya ərməğan gətirməmişəm. "Ya azadlıq, ya ölüm!" şüarı, Kərbəla qəhrəmanı Hüseynin (ə) həyatı barəsində apardığım araşdırmaların nəticəsidir ki, onu, bütün hindlilərə hədiyyə etdim. Biz Hind millətinin qurtuluşunu istəyiriksə, Hüseyn ibn Əlinin (ə) yolunu getməliyik."

**2. Haqqın səsinin qılıncın gücündən üstün olması**

Aşura məktəbinin ən böyük dərslərindən biri də haqq və batil arasında olan mübarizəni bizə əməli surətdə təsvir etməsidir. İmam öz mübarək kəlamında buna işarə edərək buyurur: "Qələbə bizimlədir, amma şəhadətlə birgə". Bəzi insanlar elə düşünürlər ki, Kərbəlada müharibə və mübarizə zamanı İmam Hüseyn (ə) məğlub oldu. Bəli, əgər bu mübarizəyə qılıncın gücü tərəfdən baxsaq İmam məğlub oldu, çünki 72 nəfər qoşun hara təqribən 30 minlik bir ordu hara. Amma əgər bu mübarizəyə başqa tərəfdən baxsaq həqiqi qələbənin İmam Hüseynlə (ə) olduğunu anlayarıq. Çünki İslam ideologiyasına əsasən qalib gəlmək və məğlub olmaq insanın hədəfinə çatıb çatmamasına bağlıdır. Elə isə gəlin hər iki tərəfin hədəflərinə diqqət edək.

### Yezidin hədəfləri

1. Yezid İmamı xarici (separatçı) kimi qələmə vermək istəyirdi, amma zaman bunun əksini göstərdi.

2. Yezid İmamı şəhid etməklə öz hakimiyyətinin sütunlarını möhkəmləndirmək və böyük təhlükəni özündən uzaqlaşdırmaq istəyirdi, amma yenə də əksinə oldu. İmamın şəhadətindən sonra Yezid cəmi 2 il xilafətdə ola bildi və insanların bu hadisədən sonra Bəni-üməyyə hakimiyyətinə baxışları mənfi tərəfə dəyişdi.

### İmam Hüseynin (ə) hədəfləri

Yezidin məqsəd və hədəflərinin qarşısında İmam Hüseynin (ə) hədəflərinə diqqət etsək hamısının həyata keçdiyini görürük. O cümlədən;

1.İslamın bu ərsəyə çatmasında və yaşamasında böyük rolu olan şəhadət ruhiyyəsi müsəlmanlar içində öz məfhumunu itirmişdi. İmam onu yenidən dirçəltdi və imamın qiyamından sonra zalım xəlifəyə qarşı bir neçə dəstə də qiyam etdi.

2. Ruhsuz İslama ruh gətirdi. Yezid İslamın ruhunu aradan aparmaq istəyirdi. İslamı özünün bildiyi, dərk etdiyi və ona əməl etdiyi həddində insanlara çatdırmaq istəyirdi. Lakin bu İslamla Hz Peyğəmbərin (s) gətirdiyi İslamın arasında yerlə-göy arsındakı məsafə qədər fərq var idi. Bu haqda qeyri müsəlman alimi Nikelson qeyd edir ki; "Bəni-Üməyyə həddini aşaraq İslam qanunlarını ayaqaltına atıb, müsəlmanları xar etdi. Tarix insafla, günahsız şəhid edilən, Hüseynin (ə) qanının Bəni-Üməyyənin boynunda olduğuna hökm verir."

Bütün bunlar bizə anlatmaq istəyir ki, hər hansısa bir şərr qüvvəyə qalib gəlmək üçün say çoxluğu olmadan belə hədəfə çatmaq olar. Yetər ki, hədəfin pak, güclü iradən, niyyətin Allah və az da olsa saleh və vəhdətə malik ətrafında bir qrup insan olsun. İmam Hüseynin (ə) səhabələri kimi bir dəstən olsun ki, hədəfə çatasan. Hətta imamın yolunda min dəfə ölüb dirilməyi gözə alırdılar. Belə bir işin nəticəsi isə 14 əsr yaddaşlardan silinməyən Kərbəla müsibəti kimi hədəfə çatmış və insanların örnək götürdüyü iş olar.




**Hüseyn (ə) qiyam etdi amma qiyama meyilli deyildi, müharibə etdi və öldürdü, amma məqsədi qan tökmək və kimisə qətlə yetirmək deyildi. İmamın hədəfi İslam dinini qorumaq və insanları islah etmək idi.**

**İmam Hüseyn (ə) yatmış və qəflətdə olan vicdanları haqqı onlara göstərməklə, öz yolu, şəhadəti və Bəni-Üməyyənin mənfur sifətini insanlara göstərməklə oyatdı. Yezid istəyirdi İslamın kökünü kəssin amma İmamın qiyamından sonra geri çəkildi. Çünki gördü ki, əzadarlıq məclisləri hətta öz evində belə keçirilir. Hüseynin (ə) şəhadəti bu böyük şərrin qarşısını aldı.**

Kamran Məmmədov





السلام عليك يا أبا عبد الله الحسين

# KƏRBƏLANIN TARİXƏ MESAJI:

## VƏZİFƏDƏN ZİYADƏ

**“Hər kəs özü bir MÜBARİZ (İbrahimov) olmalıdı, səngərdə olmaq şərt deyil, bütün həyat səngərdi əslində”**



İslam elmlərindən sayılan “Üsul” elmində belə bir məsələ var: Ağa quluna əmr edir: - mənə bir bardaq su gətir. Qul ağanın əmrini qulaq ardına vurur və su gətirmir. Ağanın qulunu cəzalandırmağa haqqı varmı? – Bu məsələdə bütün alimlər yekdil olaraq cavab verir ki, bəli, haqqı var. Amma başqa bir situasiyada; Ağa susuzdu, susundan ciyəri yanır, susuzluq hətta onun üzündə də özünü göstərir amma (müəyyən səbəblərdən) ağzını açıb, quluna əmr etmir ki, mənə bir bardaq su gətir. Və qul da ağanın susduğunu görüb su gətirmir. Belə halda ağanın qulunu cəzalandırmağa haqqı varmı? – Hə. Burda alimlərin fikri haçalanır, bəzi alimlər deyir ki, xeyr, nə qədər ki, istək özünə söz forması almayıb tələb sayılmır və tələb olmadığına görə cəza da ola bilməz. Bəzi alimlər isə deyir ki, bəli, ağa belə qulu cəzalandıra bilər. Nə olsun ki, ağa sözlə əmr edə bilməyib, axı onun üz-gözündən nə istədiyi bəlli olub. Bu halda, qul ağanın sözündən çıxmasa da, onun hər halından bəlli olan su istəyini həyata keçirməyib deyə cəzalanmağa layiqdir. (Misal şərtidi, İslam quldarlığı dəstəkləmir)

Mənim fikrimcə ikinci situasiyada vəzifə yox, vəzifədən ziyadəlik var. Qulun belə bir vəzifəsi yoxdursa da vəzifəsindən ziyadə hərəkət edib ağaya su verməli idi. Belə etsə idi bu onun məqamını artıracaq və əlavə bir bəxşişə layiq edəcəkdi.

Baxın, Ərəb dilindən bizim dilə keçmiş “səxavət və kəramət” sözləri var. İkisinin də tərkibində “bəxşiş etmək”, “yaxşılıq etmək”, “vermək” mənaları yatır amma bu iki “verimin” arasında çooox böyük bir fərq var. “Səxavətli” insan o kəsdir ki, ondan istədikdə əli boş qaytarmır. İstənilən ehtiyaclarla o kəsin qapısını döysən o sənin ehtiyacını ödəməyə cəhd edəcək və ödəyəcək. Amma “kəramətli” insan isə qarşı tərəfin ehtiyaclı olduğunu hiss edib (onun deməsini, ağız açmasını gözləmədən) onun ehtiyacını təmin edən insana deyilir. Ona görə də “kəramətlilik” “səxavətlilikdən” daha böyük məqamdı və daha böyük dəyər.

Kəramətdə vəzifədən ziyadəlik var. Təsadüfi deyil ki, Ulu Yaradanın vəsfində “o səxavətlidir” deyil, daha çox, “o kəramətlidir” deyilir. Çünki Allah bütün verdiklərini bəndə istəmədən verib. Bəndə hardan bilə bilərdi ki, mənim yaşamam üçün filan qidalar, filan atmosfer, filan keyfiyyətlər və s. lazımdı?!

Üzücüdür, Qurani-Kərimdə Rəbbimiz haqlı olaraq bu mislsiz lütfünün üzərində dayanıb bizdən giley edir: - Sizi kərim olan (istəmədən belə bəxş edən) Allahınızdan qaçıran nədi?! (İnfitar 6.) Hansımız ondan istəmişdik ki, bizi yaratsın?! Amma o, lütf etdi və yaratdı. Çünki Allah sözün əsl mənasında “kərimdi.”

Vəzifədən ziyadə olan əməllərə Yaradanın xüsusi diqqəti var. Belə əməli tarixə həkk edir, ölməyə qoymur. Misal üçün, Şəhidlik...Şəhidlikdə də bir növ vəzifədən ziyadəlik var. Mübariz İbrahimovu tanımayan yoxdu. Nə etdi o? Hansı kitabları yazdı? Hansı fəlsəfi cərəyanın əsasını qoydu? ...Bir ömürlük yolu bir gecəyə getdi Mübariz. Cəmisi bir neçə saatlıq bir hərəkətlə adını yazdırdı. Təkcə tarixə deyil, həm də - ala itdən məhşur olan “Lazımı” gözləməkdən ürəkləri pas atan bir xalqın ürəyinə. Niyə?! – Çünki vəzifədən ziyadə bir hərəkət etdi. Yuxarıdakı qul misalı kimi, kiminsə ağzını açıb

əmr etməsini gözləmədi. Torpağının rəngi-ruhundan, Dağlarının belibüküklüyündən bəs bəlli idi ki, müdafiə istəyir. Torpaq –uğrunda şəhid istəyir. Mübariz bunu duydu və getdi, susuz torpağının dodaqlarını öz qanıyla suvardı. Bu, onun vəzifəsi deyil idi. Bunu etməsə idi, heç kim onu qınamayacaqdı da. Səngərlərdə olan əsgərlərimizdən kimin belə bir tələbi varki?! Amma o bunu etdi və qiymətini aldı.

AŞURA başdan başa vəzifədən ziyadəlikdi, dostlar! Hüseyn (ə) İslamın belə bir şəhadətə ehtiyaclı olduğunu hiss etdi və ayağa qalxdı. Əgər cəddim Peyğəmbərin (s) dininin yaşaması mənim ölümümə bağlıdırsa, onda ey qılınclar doğrayın məni, dedi.

Hüseynin (ə) silahdaşları da belə idi. Dəfələrlə İmam (ə) çıxış edib, onlara bu sizin borcunuz deyil, kim istəsə gedə bilər deyə rüxsət verirdi. Amma hər dəfə biri qalxıb, min canımız da olsa sənin yolunda fəda ya Hüseyn (ə) deyirdi... Budur Aşuranı dəyərli edən dəyər.

Əziz dostlar, adı çəkilən dəyər başqa bir çox dəyərlər kimi, bəşəriyyətin arasından sıyrılıb yox olmaqdadı. İnsanlar robotlaşmaq üzrədi. Vəziyyət o qədər acınacaqlıdır ki, belə şeylərə artıq bir dəyər kimi deyil, geridəqalmışlıq kimi baxılır. Hər şey alış-verişə dönüb. İnsanlar bir-birini pul şəklində görür.

Baxın, Aşura bizə öyrədir ki, xüsusi bir əmr gözləmək lazım deyil. Bəşəriyyətin üz-gözündən və əhvalından bəlli ki, ölmək üzərədi insanlıq. Əlindən tutmaq lazım. Hər kəs özü bir MÜBARİZ olmalıdı, səngərdə olmaq şərt deyil, bütün həyat səngərdi əslində. O torpağı qorudu, sən dəyəri qoruyacaqsan, çünki onu da Mübariz kimi yetişdirən – bir dəyər idi.

Sizə fərdi və gündəlik həyatımızdan bir misal çəkim; Hələ 16-17 –ci əsrlərdə İngilis tarixçi və filosofu Frensis Bekon deyirdi:

**“Bəzən sevdiklərini qorumağın ən düzgün yolu onlardan uzaq durmaqdı.”**

Sevdiyindən – sevdiyinə görə vaz keçə bilmək bir dəyərdi. Bəzən şərtlər belə tələb edir, uzaq durmaq lazım olur. Bu bir vəzifə deyil, vəzifədən ziyadə bir şeydi. Misal üçün, qarşı tərəfin sənə hədsiz bağlanacağından və sən olmayınca çox əzab çəkəcəyindən (səbəb şərtidi) ehtiyatlanıb ona qarşı laqeyid davranmaq kimi bir dəyər var. Deyə bilərsən ki, nəyimə lazımdı, bağlanmayaydı və indi də əzab çəkməyəydi. Bəlkə haqlısan da. Amma özündən başqasını düşünmək adlı bir dəyəri tapdayırsan. Eqoistsən. Özündən başqasını düşünmək və məhz Ona görə istədiyindən (onun xəbəri olmadan belə) vaz keçmək. Bu ülvilikdi.

İmam Hüseynin (ə) qardaşı Əbəlfəzl var Aşurada. Susuz uşaqlar onun üstünə hücum çəkir, əmi, biz susuzuq deyirlər. Əbəlfəzlin ürəyi titrəyir. Uşaqların gözünün içinə baxa bilmir... Atına minir, döyüşə-döyüşə özünü Fərat çayına çatdırır. Özü də susuzdu. Bir ovuc o büllur kimi sudan götürür, qurumuş dodaqlarına yaxınlaşdırır amma içə bilmir. Hüseynin (ə) körpə balaları susuzkən sən necə su içərsən, Əbəlfəzl? – deyir.

İçsəydi heç kəs onu qınamayacaqdı, hətta o susuz körpələr belə. Amma içmədi. Tarixə bir mesaj verdi:

- Qoruyun dəyərlərinizi. Bəzəyin həyatınızı bu dəyərlərlə. Həyat bu dəyərlərsiz lüt və eybəcər görsənir.

Çox dedim ki, Ürəyimə
nə işinə...?!
Söz keçirə bilmədim ki...
Toyum oldu,
Ata oldum,
Ad günlərim bircə-bircə gəlib keçdi
Hamı dedi, hamı güldü
Belə ən xoş günümdə də
Mən içimdən gülmədim ki...
Süfrədəki tikələrə baxa-baxa
Göz önümdə kimsəsizlər gəlib durdu
Tikələrim əlimdəcə
Dondu...dondu
Donub qaldı
Heçnə yeyə bilmədim ki...

İlqar Kamil



# KƏRBƏLA HADİSƏSİ PEYĞƏMBƏRİN (S) DİLİNDƏN



*Siddiqeyi-Kubra (həzrət Fatimə (s)) imam Hüseynə (ə) hamilə olduğu vaxt imamın şəhadəti və Kərbəla hadisəsi bilinirdi. Milad gecəsi imam Hüseynin (ə) pak vücudu həzrət Peyğəmbərə (s) veriləndə o həzrət ilk öncə bu uşağın Kərbəlada şəhadətindən və aşura hadisəsindən danışdı. Peyğəmbər (s) öz həyatı gedişində Kərbəla hadisəsini tez-tez xatırlamışdır. Bu rəvayətlər bəzən Ümmü-Sələmədən, bəzən Ayişə də daxil olmaqla Peyğəmbərin (s) digər zövcələrindən nəql olunmuşdur.*

**Nəql edirlər ki, həzrət Peyğəmbər (s) Hüseyni (ə) öpən vaxt buyurdu: "İndi Cəbrail mənim yanımdadır və deyir ki, bu övladın şəhadətə çatar; belə bir qətl bəşər tarixində görünməmişdir və onun köməkçiləri də şəhid olar. Cəbrail hətta Hüseynin (ə) şəhid olacağı yerin torpağını mənə göstərdi." Rəvayətlərdə nəql olunur ki, həzrət Peyğəmbər (s) zövcəsi Ümmü-Sələməyə bu torpaqdan bir ovuc verib buyurdu: "Nə vaxt bu torpaq qana dönsə, bil ki, Hüseyn şəhid olmuşdur."**

Peyğəmbərdən (s) soruşurlar ki, bu körpənin nə üçün boğazından və sinəsindən öpürsən? Həzrət (s) buyurur: "Mən qılınc yerlərini öpürəm."("Bihar", c. 44, s. 261) Bu nöqtələr sünnə əhli tərəfindən də nəql olunmuşdur.

Bu sözlərin arxasında hansı sirr dayanır? Peyğəmbəri (s) bu xəbərin təkrarına vadar edən onun sevgisi idimi? Əgər Peyğəmbəri (s) bu təkrarlara sövq edən yalnız daxili hisslər idisə, nə üçün daha fəzilətli Əmirəlmömininin (ə) mehrabda şəhadəti haqqında danışılmırdı? Nə üçün Peyğəmbər (s) tez-tez Əlinin (ə) şəhadətini yada salmırdı?!

Əmirəlmömininin (ə) şəhadət xəbəri həzrət Peyğəmbərdən (s) iki dəfə nəql olunmuşdur.("Əmaliyi-Səduq", s. 93: "Əl-məclisul-Əşrun") Bu xəbərlərdən biri şəban ayının sonundakı cümə xütbəsinə təsadüf edir. Bu xütbədə ramazan ayı vəsf olunur. Həmin məclisdə həzrət Əli (ə) ayağa qalxıb Peyğəmbərdən (s) soruşur: "Bu ayda hansı əməl daha fəzilətlidir?" Həzrət Peyğəmbər (s) buyurur: "Günahdan pəhriz." Sonra Peyğəmbər (s) sözünə belə davam edir: "Sanki bu ayda səcdə halında ikən başının qanının saqqalını boyayacağını görürəm."

Amma Peyğəmbər (s) imam Hüseynin (ə) şəhadəti haqqında hətta ömrünün son saatlarında da danışır. O buyurur: "Uşaqları gətirin, onlarla vidalaşım." İmam Hüseyni (ə) Peyğəmbərin (s) sinəsi üstünə qoyurlar. Həzrət Peyğəmbər (s) buyurur: "Ya Əba Əbdillah, Əzizun-Ələyy." Sonra isə ağlayır. ("Bihar", c. 44, s. 251) İbn Abbasdan nəql olunan digər bir rəvayətdə deyilir. Həmin vaxt Peyğəmbər (s) buyurdu: "Allah Yəzidə lənət etsin." Sonra Peyğəmbər (s) huşunu itirir. Özünə gəldikdə gözü yaşlı halda Hüseyni öpüb buyurur: "Ey Əba-Əbdillah, mənim üçün çətindir! Bizim Bəni-üməyyə, Yezid ibn Müaviyə ilə nə işimiz var?!" ("Bihar", c. 44, s. 266)

Bəzi rəvayətlərdə imam Hüseynin Peyğəmbərin (s) çiynində, bəzi rəvayətlərdə isə dizi üstündə oturduğu bildirilir. ("Bihar", c. 44, s. 229) Digər bir rəvayətdə nəql olunur ki, Hüseyn (ə) Peyğəmbərin (s) başı üstündən keçirdi və Peyğəmbər (s) onu öpürdü. ("Bihar", c. 44, s. 234) Peyğəmbər (s) buyurur: "Cəbrail mənə xəbər verdi ki, mənim bu övladım şəhid olar. O dedi ki, əgər istəsəm, Hüseynin (ə) şəhid olacağı yeri mənə göstərər." Ümmü-Sələmə deyir: "Sonra Peyğəmbər (s) mənə bir ovuc qırmızı torpaq verib buyurdu: "Bu Kərbəla torpağıdır. Onu saxla. Bu torpağın qana çevriləcəyi gün bil ki, övladım şəhid olmuşdur."

Bu sayaq həqiqətlər Qurani-Kərimdə də zikr olunmuşdur. Yusif öz qardaşlarına deyir: "Bu köynəyi aparın və atamın üzünə sürtün... Onun gözləri açılar." ("Yusuf", 93)

Bu xəbər təbabət qanunları ilə uyğun gəlirmi? Amma bunu inkar edən kafirdir. Çünki bu həqiqəti Quran bəyan

etmişdir. Biz hər sözü təcrübi elmlər prizmasından dəyərləndirə bilmərik. Bir çox məsələlər qeyb və batin aləminə aiddir. Bu həqiqətlər maddi meyarlarla təsdiqlənməsə də, bir həqiqətdir.

Həzrət Zəhra haqqında qeyd etdim ki, məsələ ata və övlad hisslərindən qaynaqlanır. Burada da məsələ Siddiqeyi-Kübrada olduğu kimi, səmavi bir məsələdir. İslam cəmiyyətinə bildirilməlidir ki, qarşıda Hüseynin başına gələcək hadisə mühüm bir hadisədir və müsəlmanlar ona biganə qalmamalıdır.

Əliəsğər Səffar Hərəndi

# İSLAM ALİMLƏRİ: السلام عليك يا ابا عبد الله الحسين

# İMAM HÜSEYNƏ (Ə) ƏZA SAXLAMAQ

***İmam Sadiq (ə) Fəzl ibn Yasirə buyurur: "Əza məclisi təşkil edirsinizmi? Bir-biriniz üçün hədis danışırsınızmı?". Deyir: "Bəli". Buyurur: "Bu cür məclisləri sevirəm. Bizim işimizi dirçəldin, hər kim bizim işimizi dirçəldər - İlahi rəhmətə nail olar".***




Ayətullah Qazi buyurur: "İmam Hüseynin (ə) ziyarətini oxuyun və əzadarlıq saxlayın. Hətta əgər üç nəfərlə olsa belə, növhə oxuyun, işlərinizin düyününü açar. Əgər hər həftə bu işi görə bilməsəniz, ilk 10 gündə tərk etməyin".

Ayətullah Şeyx Abdullah Maməqani buyurur: "O zamana qədər ki, çörəyin tikəsi boğazınızdan keçir, evinizdə mərsiyə oxumağı tərk etməyin".

Ayətullah Nurəddin Əraki haqqında Ayətullah Muhəmmədəli Əraki nəql edir: "Mən öz gözlərimlə görürdüm ki, Aşuranın ilk on günündə alimin evində gün çıxandan başlayan əza məclisi zöhrə qədər davam edərdi. Bura çox sayda qərib və Ərak camaatı gəlib gedirdi. O, mərsiyəni oxunmağa başlanan kimi yanına bir neçə dəsmal qoyardı. Bu dəsmallar göz yaşından islanardı və mərsiyə başlayandan məclis qurtarana qədər ağlayardı. Mən bilmirdim ki, bu necə ağlamaq idi ki, sona çatmırdı. Aşura günü olan kimi məriəə olardı və ağlamaq öz əsl mənasını tapırdı. Sanki oğlunu əldən vermişdi".

Ayətullah Mirzə Cavad Məlɘki Təbrizi buyurur: "Yaxşı olar ki, Ali-Muhəmməd (ə) dostlarının halı Məhərrəmin ilk on günündə dəyişsin. Ürək və simalarında bu böyük müsibətin təsiri görünsün. Bu günlərdə yeməkdən, içməkdən və hətta yatmaqdan alınan ləzzətlər tərk edilsin. O kəs kimi olmaq ki, sanki ata və ya oğlunu itirmişdir. Peyğəmbər (s) və İmamların (ə) ehtiramı gərək yaxınların ehtiramından çox olsun. Əgər kimsə bu 10 gündə bu işi görə bilməsə ən azı Tasua və Aşura günləri dünya ləzzətlərindən əl çəksin".

Ayətullah Mərəşi Nəcəfi haqqında danışırlar: "Məhərrəm və Səfər aylarında qara paltar geyinərdi və öz vəsiyyətnaməsində yazmışdı: Məhərrəm və Səfər ayında Ali-Muhəmməd (ə) müsibətinə görə geyindiyim qara paltar mənimlə bir yerdə dəfn olunsun. Vəsiyyət edirəm ki, İmam Hüseyn (ə) üçün tökdüyüm göz yaşı olan dəsmalı kəfənimin üstündən sinəmə qoysunlar".

Ayətullah Müctəhidi Tehrani buyurur: "Mənim müvəffəq olmağımın səbəbi - tələbəlik dövründə təvəssül, mərsiyə oxunan və sinə vurulan məclislərdə iştirak etmək olmuşdur. O zaman ki, tələbə idim, cümə axşamları evimdə mərsiyə məclisi təşkil edərdim. O zaman ki, Quma getdim, orada da mərsiyə məclisi təşkil etdim".

Ayətullah Behcət buyurur: "Əhli-beyt (ə) müsibətinə ağlamaq və xüsusilə də İmam Hüseyn (ə) üçün ağlamaq - o müstəhəb əməllərdəndir ki, ondan fəzilətlisi yoxdur. Mən belə düşünürəm ki, İmam Hüseynə (ə) ağlamaq gecə namazından da üstündür".

İmam Xomeyni buyurur: "Biz əgər əbədi olaraq İmam Hüseyn (ə) üçün ağlaya bilsəydik, İmam Hüseynə (ə) heç bir faydası olmazdı, bizim üçün olardı. Bu göz yaşları, bu mərsiyə oxumaq, şeir deməklə məktəbimizi qorumaq istəyirik, necə ki, indiyə qədər qorumuşuq".

Əllamə Təbatəbai buyurur: "Əslində bir damcı göz yaşı tövbə kimidir ki, günahların bağışlanılmasına və əzabın aradan getməsinə səbəb olar. Ey kaş, Həzrət Seyyidi-şühədanın (ə) mərsiyə deyəni olardım. Bütün il boyu məşğul olduğum dərs və bəhslər İmam Hüseyn (ə) üçün deyilən bir mərsiyə ilə bərabər ola bilməz".

# İMAM HÜSEYN (Ə) VƏ QURANİ-KƏRİM

**İmam Hüseyn (ə) və Aşura qiyamı barədə əsrlər boyunca çox yazılmışdır. Hər müəllif bu mövzuya fərqli aspektdən yanaşmağa çalışmış, özünün mühüm bildiyi cəhətləri qabartmışdır. Yazılan kitabların bir qismi tarix, bir qismi əqidə, bir qismi ədəbiyyat, bir qismi də siyasət ağırlığına malikdir.**



Bəzi alimlər də Aşura qiyamına irfani nəzərlə baxmış, müxtəlif rəmzlər, simvollar, təşbehlər vasitəsilə onu vəsf etmişlər. Belə alimlərdən biri də mərhum Ayətullahül-üzma Şeyx Cəfər Şüştəridir. Şeyx Cəfər Şüştəri böyük fiqh alimi və öz dövrünün mərceyi-təqlidlərindən biri olsa da, "əl-Xəsaisül-Hüseyniyyə" kitabını məhz irfani üslubda qələmə almışdır.

Mövzuya keçməzdən əvvəl mərhum Ayətullah Şüştərini aşura müsibəti ilə bağlayan bir cəhətə diqqət yetirmək istərdik. Alimin nəticəsi Şeyx Mühəmməd Təqi Şüştəri öz ulu babası haqqında xatirələrində qeyd edirdi ki, Şeyx Cəfər cavanlığında hafizəsinin zəifliyindən əziyyət çəkirmiş. Belə ki, hətta minbərdə camaata moizə edərkən və rovzə oxuyarkən kitaba baxmağa möhtac imiş, mövzuları yadda saxlaya bilmirmiş. Kitabdan istifadə etmək onun moizələrinin təsir gücünü azaldırdı. Axırda Şüştəri İmam Hüseynə (ə) təvəssül edir ki, hafizəsinin düzəlməsi üçün Allahla onun arasında vasitəçi olsun.

Alim həmin gecə qəribə bir yuxu görür. Yuxuda görür ki, Aşura günüdür və o, Kərbəlada, İmam Hüseynin (ə) çadırındadır. İmam Hüseyn (ə) Şeyx Cəfərə oturmaq üçün yer göstərir, sonra yanında duran Həbib ibn Məzahirə tərəf dönüb buyurur: "Ey Həbib, bu gənc bizim qonağımızdır. Ona ehtiram göstərib yemək verməliyik. Bilirəm ki, suyumuz yoxdur, ona görə heç olmasa buğdadan və yağdan bir yemək hazırlayıb gətir".

Həbib ibn Məzahir çadırdan çıxır və az sonra bir boşqab xörəklə qayıdır. Xörəyi Şeyx Cəfərə təqdim edir. Alim röya aləmində xörəkdən bir neçə qaşıq yeyib yuxudan ayılır. O an hiss edir ki, hafizəsi düzəlib. O gündən Şeyx Cəfər Şüştəri minbərə qalxanda kitabdan istifadə etmir və zamanının ən güclü xətibi kimi şöhrət qazanır. Deyirlər ki, onun bircə cümləsindən camaat riqqətə gəlib ağlayar, məclisdə ah-nalə səsi ucalarmış.

Şeyx Cəfər Şüştəri XIX əsrin ən böyük müctəhidlərindən biri idi. O, Sahibi-Zəvabit, Sahibi-Cəvahir, Sahibi-Füsul, Şeyx Cəfər Kaşiful-qitanın oğulları Şeyx Əli və Şeyx Həsən, Şərifül-üləma Mazandarani, eləcə də, Şeyx Mürtəza Ənsari kimi elm nəhənglərindən dərs almışdı. Deyirlər ki, onun imamlığı ilə qılınan camaat namazında 24 min nəfər iştirak edirmiş, namazın mükəbbirlərinin (təkbir deyənlərin) sayı yüzdən çox imiş.

Şüştərinin "Xəsaisül-Hüseyniyyə" (İmam Hüseynin özünəməxsusluqları, fəzilətləri) kitabı 2 cilddən ibarət imiş. Kitabın yalnız birinci cildi çap olunub, ikinci cildi isə itib.

Müəllif kitabda İmam Hüseyni (ə) Quranla və Kəbə ilə müqayisə edir, həzrətin mənəvi məqamını təsvirə çəkir, onun yaradılışdan əvvəl, dünyada və axirətdəki məqamlarını irfani dillə canlandırır. Kitabın maraqlı bölümlərindən biri də Qurani-kərimin 14 mənzili (məqamı, yeri) və buna uyğun olaraq İmam Hüseynin də 14 mənzili barədə yazılanlardır.

Şeyx Cəfər Şüştəri qeyd edir ki, Qurani-kərim yaradılışın əvvəlindən sonuna kimi 14 mənzilə malik olub və olacaq.

Birinci mənzil lövhi-məhfuzdur. Allah-təala hər şeyi, o cümlədən, Quranı da lövhi-məhfuza həkk edib: "O, şanlı-şərəfli Qurandır. O, lövhi-məhfuzdadır" ("Büruc" surəsi, ayə 21-22).

Quranın ikinci mənzili lövhi-məhfuzun gözətçisi olan İsrafil mələyin qəlbidir.

Üçüncü mənzil Mikayıl mələyin (ə), dördüncü mənzil isə Cəbrayıl mələyin (ə) qəlbidir. Bu mələklər Quranı bir-birindən əxz etmişlər, Cəbrayıl mələk də Peyğəmbərə ötürmüşdür.

Quran Qədr gecəsində beşinci mənzilə - beytül-məmura, yəni ərşdən yer səmasına endirildi.

Altıncı mənzil Qədr gecəsində Peyğəmbərin qəlbinə Quranın birdəfəlik endirilməsi oldu.

Quranın yeddinci mənzili 23 il ərzində hissə-hissə Peyğəmbərin qəlbinə endirilməsi ilə bağlıdır.

Hədislərə görə, Quran hər il Qədr gecəsində İmam Zamana (ə) təqdim olunur, bu da onun səkkizinci mənzilidir.

Qurani-kərimin doqquzuncu mənzili – onu eşidən insanların qulağı, onuncu mənzili – onu oxuyan insanların dilidir.

Ayələr kağıza yazılır, bu da on birinci mənzil sayılır.

Quran ayələri möminlərin qəlbinə hopur, mömin qəlblər on ikinci mənzil olur.

Qurani-kərim qiyamət günündə yaraşıqlı qiyafədə məhşərə daxil olar, ona ehtiram bəsləyənlərə şəfaət edər, ona sayğısızlıq edənlərin əleyhinə şəhadət verər.

Nəhayət, Quranın on dördüncü məqamı behiştdir. Quran behiştə möminlərin qəlbində gedər. Möminlər öz dərəcələrinə, o cümlədən, Quranla ünsiyyətlərinə görə cənnətin bir dərəcəsindən daha yüksək o biri dərəcəsinə ucalarlar, Quran da onların qəlbində ucalıq qazanar.

Bunlar Şeyx Cəfər Şüştərinin irfan dünyasında Quranın 14 mənzilidir. Daha sonra alim bu 14 mənzilə uyğun olaraq İmam Hüseynin də 14 mənzilə malik olduğunu bəyan edir və həmin mənzilləri bir-bir açıqlayır, bununla da İmam Hüseynin şəxsiyyəti ilə Quran arasında bənzərlik tapmağa çalışır.

Müəllif qeyd edir ki, İmam Hüseynin (ə) birinci mənzili ruhlar aləmi idi. O həzrət İslam Peyğəmbərinin mübarək nurundan yaranmışdı. (Hədislərdə buyurulur ki, varlıq aləmində yaranmış ilk şey Həzrət Rəsulullahın nuru olmuşdur. Bu nur parçalanmış, ondan digər məsumların nurları yaranmış, daha sonra bütün varlıq aləmi vücuda gəlmişdir).

İmamın ikinci mənzili Allahın ərşinin ətrafı, üçüncü mənzili behişt idi (bu mənzillərdə həzrət ruh halında idi).

İmam Hüseynin (ə) nuru öz ulu əcdadları vasitəsilə dövr etmiş, ataların sülbündə (belində) və anaların bətnində ötürülmüşdür. Bunlar da onun dördüncü və beşinci mənzilləri idi.

İmam Hüseyn (ə) dünyaya gələrkən Həzrət Fatiməyə (ə) yardım etmiş mələklərin əli o həzrətin vücudu üçün altıncı mənzil oldu.

Doğulduqdan sonra İmam Hüseynin (ə) yeddinci mənzili Peyğəmbərin mübarək vücudu idi. İmam o həzrətin sinəsi üstə, qucağında, boynunda, çiynində qərar tutardı.

İmam Hüseynin (ə) səkkizinci və doqquzuncu mənzilləri anası Fatimənin (ə) və atası Əlinin (ə) qucağı idi.

Onuncu mənzil vəhy mələyi Cəbrayılın (ə) qucağı idi. (Vəhy mələyi insan cildində peyğəmbərə görünərdi). Cəbrayıl (ə) körpə Hüseyni (ə) öpüb əzizləyərdi.

Sonralar İmam Hüseynin (ə) on birinci uca mənzili İslam Peyğəmbərinin minbəri oldu. Babası onu minbərdə öz yanında otuzdurub camaata göstərər, gələcək şəhadəti barədə danışardı.

Peyğəmbər vəfat edərkən İmam Həsənlə İmam Hüseyn (ə) onun vücuduna sarılıb vidalaşdılar. Bu da həzrətin on ikinci mənzili idi.

İmam Hüseynin (ə) on üçüncü mənzili Peyğəmbərin qəlbi idi. Allahın Rəsulu buyurmuşdu: “Mənim qəlbimdə Hüseyndən ötrü elə bir yer var ki, heç kimin yeri ona bənzəməz”.

Nəhayət, İmam Hüseynin (ə) on dördüncü mənzili onu sevən möminlərin qəlbidir.

Şeyx Cəfər Şüştəri (“Xəsaisül-Hüseyniyyə”)




*Aşura məktəbi məzlumiyyətdən yaranmır, qəhrəmanlıqdan yaranır. Kərbəla hadisəsi buna görə əbədi qalıb ki, orada məzlumiyyət yox, Allah yolunda qəhrəmanlıq var. Buna da ixlas deyirlər. Yəni əbədiyyəti ixlasına görədir.*

*Qurani-Kərim buyurur: “Hər nə Allahın yanında qalsa “baqi” qalar”. Nəyi versən Allaha əbədiləşər. Nəyi bəxş etsən ki, Allahın yanında qalsın bu həmişəlik olur. Sədəqə də belədir. Bir nəfər ki, canını verir o can əbədiləşir. Allah yolunda canını bağışlayır o can, o məktəb əbədiləşir.*

*İmam Hüseynin (ə) qiyamının, İmam Hüseynin məktəbinin məzlumluq tərəfi də var. Məzlumluqla yanaşı bir mənəvi qəhrəmanlıq tərəfi də var. Yəni iki xasiyyəti birləşdirib özündə. Məzlumluq tərəfi insana kədər gətirir, qəm gətirir, ağlamaq gətirir. Mənəvi qəhrəmanlıq tərəfi isə insana dərs almaq gətirir, insana ülgü gətirir. İnsan bu məktəbin meyvəsini həmişə dərmək istəyir. İmam Hüseynin (ə) məktəbi “tuba” ağacıdır. Həmişə meyvələri hazırdır və bu meyvələrdən faydalanmaq olar.*

*Məhəmməd Baqir Saivər*

# Sülhdən Kərbəlaya



***Bizim, tarixi yazılarda imam Həsənin (ə) sülhünün və imam Hüseynin (ə) qiyamının səbəbləri haqqında söylənilən müxtəlif nəzərlər haqqında az da olsa xəbərimiz var. O, yazılarda qeyd olunduğu kimi tarixdə sülhə səbəb olan ən başlıca amillərdən biri olaraq Müaviyə, Əmr As, bunların birgə yürütdükləri çirkin siyasət, imam Həsənin (ə) qoşununda olan ayrı seçkilik, bəzi sərkərdələrin satılması, xəyanəti, o zamanda İslam dünyasını təhdid edən problemlər nəzərdə tutulmuş olur. Eyni zamanda imam Hüseyn (ə) qiyamında buna oxşar amillərdən Yezidin siyasi ictimayi siması, İbni Ziyad, Kufəlilər, imam Hüseynin (ə) zaman təhlilini nümunə əsas amillər kimi vurğulanmaqdadır. Yuxarıda adı çəkilən amilləri Sülhdən Kərbəlaya uzanan yol adlı ssenarinin səhnədə görünən tərəfləri kimi qiymətləndirmək olar. Bəli bu amillər o zamanda olduğu kimi dövrümüzdə də danılmaz bir həqiqətdir. Ancaq bu iki önəmli hadisə haqqında azca da olsa fikirləşən zaman yuxarıda qeyd olunan amillərin yetərsizliyi ilə üz-üzə qaldığını görürsən. Buna görədə Sülh və Kərbəla qiyamı bizlərdən bir daha bu iki önəmli hadisəyə müxtəlif prizmalardan baxmağı tələb edir. Daha da dolğun desək, söylənilən amillərin yetərsizliyi bizləri bu iki mühüm hadisə haqqinda dərindən düşünməyə və dəqiq araşdırmağımızı vadar edir. Fikirləşirsən, düşünürsən, məlum olan detalları yan-yana qoyursan amma yenə də bəzi detalların çatışmamazlığını gördüyün zaman insanı düşündürən suallarla üz-üzə qalırıq.***

Görəsən bu iki önəmli ssnarinin pərdə arxası amilləri vardırmı, əgər varsa hansılardır?

Amil və ya önəmli səbəblər dedikdə bu məqalədə nəzərdə tutlan iki hadisə haqqında fərqləndirici əsas iki amilə toxunulacaq. Bu səbəblərə görə həm ərəbləri bir ərəb olaraq və eyni zamanda müsəlman olaraq görmə məcburiyyətindəyik.

Düzünü desək ərəblər Səqifə hadisəsi ilə bir daha sübut etdilər ki, milli maraq və mənafelərinə uyğun olmayan hər hansı qanunlaşmanın altına girməyəcəklər. Yüz illər boyunca Mülükt-tavaif (xırda yerli idarə etmə sistemi= qəbilə sistemi) sistemi ilə idarə olunan bir yarımada da mərkəzləşmiş bir dövlətin uzun yaşaması ciddi sual doğuran məsələ idi. Buna görə də İslam Peyğəmbərinin (s) ruhu bədənindən ayrılan kimi, ərəblər öz peyğəmbərlərinin (s) evinə yox Səqifəyə tələsdilər. Mümkündü bu hadisənin tarixdə bir səhv olmasını düşünənlər tapılsın. Amma, əgər ərəb və onun fərdi düşüncə tərzini nəzərə alsaq, Səqifəni danılmaz və qaçılması mümkün olmayan acı bir həqiqət kimi qəbul etməliyik. Çünki buna oxşar hadisələr tarix boyu dəfələrlə müsəlmanlar tərəfindən təkrarlandı və artıq müsəlmanlar tərəfindən İslami etiqad bir dəyər kimi qiymətləndirildi. Əgər belə olmasaydı Müaviyə xəlifə kimi tanınmazdı və eyni zamanda Yezidə də müsəlmanların gələcək xəlifəsi kimi beyət olunmazdı. Ərəblərin bu cür düşüncə tərzi demək olar Müaviyənin ölümü və Yezidin taxta oturaraq İmam Hüseyndən (ə) beyət alınana qədər davam etdi.

Hətta bu düşüncə sahibləri o yerə çatdılar ki, öz rəhbərləri olan imam Həsəni (ə) əli bağlı Müaviyəyə təhvil verməyə belə hazır idilər. Bu da İmamın (ə) sülhə razılıq verməyinə səbəb olan başlıca proseslərdən biridir.

İkinci amil, yenə də ərəblərin Müaviyə tərəfindən məhvə doğru sürüklənmələrindən xəbərsiz olmamaları idi. İmam Həsənin (ə) dövründə yaşayan müsəlmanların əksəriyyəti elə düşünürdu ki, Müaviyənin varlığı fərdi bir təhdiddir. Yəni bir gün gələr onun da xilafətinin sonu çatar və ərəb ya müsəlmanların öz gələcəkləri haqqında

düşünməyə imkan yaranar. Amma həqiqəti az bir insan anlamışdır ki, onları da demək olar Müaviyə öz terror maşını ilə məhv etməyi bacarmışdır. Müaviyənin varlığı təkcə müsəlmanları (mənəvi) yox bəlkə ərəb (millətçi ərəblər) hakimyyəti düşünənləri də məhvə sürükləyir. Bunu başa düşənlərin sayı az olduğundan ciddi bir nəticələr əldə edə bilmədilər və qeyd olunduğu kimi Müaviyənin xəyanət oxuna tuş gəlib şəhid oldular.

Bu iki amil imam Həsənin (ə) sülhünün pərdə arxası önəmli və başlıca amillərindən saymaq olar. İmam da (ə) bir ilahi rəhbər kimi dəqiq addım ataraq həm barmaq sayında olan əsl dostlarını qorudu və həm də İslam dünyasının məhvə sürüklənməsinin qarşısını aldı.

İndi isə keçək imam Hüseynin (ə) qiyamının iki ən önəmli və başlıca olan amillərinə. Əvvəldə də qeyd olundu ki, bu iki əsas tarixi hadisəni dəqiq təhlil etmək üçün ərəblərin düşüncə tərzinə toxunmaq lazımdır. İnsanı düşündürən bir sual ortaya çıxır, Müaviyənin ölümü ilə ərəblərin İmama (ə) on iki min imzalı məktubun gəlməsi nəyə bağlı idi? Bir neçə ayın içində ərəblərin Bəni-Üməyyə xanidanına qarşı bəsirət gözlərimi açılmışdı? Görəsən başlıca və önəmli amil nə idi?

Əvvəla onu qeyd etmək lazımdır ki, imam Həsənin (ə) sülhü ilə imam Hüseynin (ə) inqilabının arasıda təqribən iyirmi illik zaman fasiləsi mövcuddur. Bu fasilə nəyi dəyişdi?

Birinci səbəb bundan ibarətdir ki, artıq müsəlmanlar Bəni-Üməyyə xanidanının insanlıq, müsəlman və hətta ərəb aləmi üçün real bir təhlükə olduğunu dərk etməyə başlamışdılar. Bunuda qeyd etmək lazımdır ki, Kufəlilərin məktubu sırf İslami bir qiyamdan xəbər vermirdir. Bu məktublarda xilafət süfrəsindən qovulanlar və uzaq düşənlər də vardı. Buna görə də əksəriyyət Yezid xanidanı ilə həmişəlik vidalaşmaq istəyirdilər. İki cəbhəni (müsəlman və ərəb düşüncəli) birləşdirən əsas amil Yezidin xəlifə kimi taxta oturması ilə təhlükə ilə üzüzə qalmaları idi.

İkinci amil kimi isə, nisbətən həqiqətin ortaya çıxmasından sonra doğurdan da müsəlmanların əlbəttə az bir qisminin Peyğəmbər (ə) ailəsinə ehtiyac duymasıdır. Ərəblər artıq həm mənəvi və həm də bir millət olaraq məhv olduqlarını açıq-aşkar görməkdə idilər. Həqiqi müsəlmanların imam Hüseynə (ə) mənəvi bir rəhbər kimi və ərəblərin də karizmatik lider kimi ehtiyacları vardı. Yanlız ərəb hakimyyəti haqqında düşünən ərəbləri qorxudan ən təhlükəli məsələ uzun müddətdir şimal və cənub ərəbləri konflikti idi. Şimal deyəndə, şamlılar, cənub deyəndə isə geridə qalan islam dünyası yada düşürdü. Özlərini bu fəlakətdən qurtarmaq üçün gecə-gündüz İmamla əlaqə yaradaraq onu Kufəyə dəvət etdilər. Nəticə isə bu günə kimi, gün kimi hamıya aydındır.

Fariz İsmayılov



*İmam Hüseynin (ə) əzadarlıq mərasimləri o zamana qədər davam edəcək ki, doğrudan da müsəlmanlar İmam Hüseyndən ibrət dərsi alsınlar. Amma siz təsəvvür edin 7-ci əsrdə baş vermiş bir hadisə bu günə qədər qeyd edilirsə onu göstərir ki, insanlar ondan doğru-düzgün ibrət almadılar. Nəinki insanlar, hətta müsəlmanlar belə ibrət dərsi almadılar.*

*Həmin hadisələr bu günlərdə təkrarlanmaqdadır. Dünyanın bir çox yerlərində Kərbəlalar yaşanır, günahsız insanlar qətl olunur və yenə də zalımlar Yezid timsalında insanlara hökmranlıq edir, məzlumlara əziyyət edirlər. Biz belə düşünürük ki, bu qiyamətə qədər davam edəcək. Niyə? Çünki, insanlar doğrudan da İmam Hüseyn məktəbində hələ də sinifdə qalıblar. Və bu da onu tələb edir ki, mərasimlər dayanmamalıdır. Bu mərasimlər o zamana qədər davam edəcək ki, artıq dünyada Kərbəla hadisələri yaşanmasın, Aşuralar təkrarlanmasın, günahsız insanlar ölməsin, yezidlər hakimiyyətdə olub, məzlumlara əziyyət etməsinlər. Və bir sözlə İmam Zamanın (ə) zühuruna qədər bu hadisə davam edəcək. Necə ki, peyğəmbərimiz bu haqda buyurub: "Möminlərin qəlbində İmam Hüseynə qarşı elə bir hərarətli sevgi var ki, qiyamətə qədər aradan getməyəcək."*

***Ramin İgidov***

# DİNLƏ PƏRDƏLƏNMİŞ RƏZİLLİYİ ÜZƏ ÇIXARAN KƏRBƏLA HADİSƏSİ



***Kərbəla hadisəsi haqqında bu günə kimi çox fikirlər irəli sürülüb. Kərbəla fenomeni metatarix və tarix, ümumbəşəri dəyərlər və milli mədəniyyət, sosioloji və irfani cəhətdən çox araşdırılıb və araşdırılmaqda davam edir. Hətta günü bu gün də qeyd olunan aspektlərdən bu hadisəyə qarşı təqdir və tənqidlər səsləndirilir. Maraqlısı budur ki, artıq müxtəlif baxış bucaqlarından incələnməsinə baxmayaraq, İmam Hüseynin (ə.s) Kərbəlası ilə bağlı bir çox mövzular qeyri-təbii olaraq gündəmi zəbt etməyi bacarır. Ən azından elə buna görə İmam Hüseyn (ə.s) qiyamına sıradan bir tarixi hadisə kimi yanaşmaq kökündən yanlışdır.***

Aşura tarixilikdən çıxıb, o artıq bir mifdir. Mif dedikdə təbii ki, əfsanə deyil, mədəniyyətin irrasional qatını nəzərdə tuturuq. Hər bir mədəniyyət zahiri forması ilə yanaşı, batini məzmuna (arxetiplər, miflər) da malikdir. Bizim hər il müşahidə etdiyimiz, barəsində danışdığımız, müzakirə etdiyimiz Aşura mərasimi əzadarlıq adlı mədəni fenomenin zahiri qatıdır. Lakin bu fenomeni meydana gətirən, kütləvi şüurun alt qatından qaynaqlanan səbəblər də var ki, buna lazımınca diqqət yetirilmir.

Dünya çapında bu fikrə rast gəlinməsə də, bizim cəmiyyətdə "Aşura iki əmioğlunun taxt üstündə savaşı idi" deyimi mövcuddur. İlk baxışdan bu fikrin tarixi əsası var. Kərbəlada iki qohum klanın - Bəni-Haşimlə Bəni-Üməyyənin tərəfdarları qarşılaşır. Lakin həmin iki cəbhə hansı dəyərlərin daşıyıcısı idi?

Bu klanların hər ikisi "Hicazın şahı" ləqəbi ilə tanınan Qüsayədən törəyiblər. Qüsayə V əsrdə Məkkədə dövlətçilik üçün zəmin yaradan məşhur qəbilə başçısı idi. Hamıya da bəlli idi ki, gələcək dövlətin başına Qüsayə övladları keçməlidir. Lakin Qüsayədən sonra onun nəsli Bəni-Haşim və Bəni-Üməyyə klanlarına bölünür. Ərəb şovinizmi, bu şovinizmdən doğan ənənəvi anemistik dini baxışlara sədaqət və özlərini ərəblərin aristokratiyası kimi görmək Bəni-Üməyyəyə xas xüsusiyyətlər idi. Təbii ki, Qüsayə nəslinin digər qolu olan Bəni-Haşim bu fikirləri bölüşmədiyi üçün Bəni-Üməyyə onları özlərinə ən böyük rəqib və düşmən bilirdi. İslamın zühurundan sonra Həzrət Məhəmmədin (s.ə.a.s) bütün səyləri şovinizmin bütün təzahürlərini sıradan çıxarmağa yönəldi. O, "mən də sizin kimi keçi sağan bir qadının oğluyam" deyib özünü başqaları ilə bir cərgəyə qoydu. Bəni-Haşimdən olmasına rəğmən bu klanı digərləri ilə eyniləşdirdi, Qureyş qəbiləsinin digər ərəb qəbilələri yanında imtiyazlarını ləğv etdi, cənub və şimal ərəbləri, şəhərlilər və bədəvilər arasında bölgüyə son qoymağa çalışdı. Mədinəyə gəldikdə yəhudi və xristianları müsəlman dövlətinin tamhüquqlu vətəndaşları elan etdi.

Ərəblə əcəmin qardaşlığını bəyan etdi. Peyğəmbər (s) Mədinədə fərqli sosial təbəqələrə mənsub olan insanları vahid amal ətrafında birləşdirdi. Məkkənin fəthindən sonra antimüsəlman koalisiyasına başçılıq edən bu şəhərin əhalisini, xüsusilə də Bəni-Üməyyəni əfv etdi. Peyğəmbərin (s) apardığı mücadilənin əsas sütununu Mədinə rəhbərlərinin təşkil etdiyini nəzərə alsaq, bütün bunlar qeyri-mümkün olmalı idi.

Hətta makiavelist təfəkkürə görə, bunlar yanlış addımlar idi. Lakin Həzrət Məhəmməd (s.ə.a.s) bəşəriyyəti hansı dəyərlərə dəvət edirdisə, ona uyğun metodlardan da istifadə edirdi. O, keçici dövlət deyil, həmişəyaşar məktəb yaradırdı. Ərəb cəmiyyəti bəlkə də bu dünyagörüşü mənimsəməyə hələ hazır deyildi. Elə ona görə də qısa müddətdən sonra Bəni-Üməyyə xilafətin başına keçir. Sanki, İslam peyğəmbəri (s) heç gəlməyibmiş kimi, ərəblərin milli dövlət quruculuğu öz axarı ilə davam etməyə başladı. Əməvi hökuməti şovinizmin bütün çalarlarını özündə əks etdirirdi. Bunun nəticəsində

təbəqələşmə kəskinləşdi, Bəni-Üməyyə timsalında aristokratiya formalaşdı, ərəblərin digər etnik qruplardan üstünlüyü elan olundu, qeyri-dinlərin nümayəndələrinin vəziyyəti ağırlaşdı, cənub-şimal qütbləşməsi yarandı. Xilafət xalqların zindanı olan bir imperiyaya çevirilirdi.

Bütün bunlar sıradan tarixi bir proses idi, adi bir şovinizm ədalət və azadlıq adı altında cəmiyyətə təqdim olunurdu. Cəmiyyət də buna inanmaq istəyirdi deyə inanırdı, axı şovinizm sadəcə ifrat etnosentrizm deyil, eqoizmin ətraf aləmə inikasıdır. Peyğəmbər (s) isə ərəb tarixində epizodik personaja, ən yaxşı halda isə din islahatçısına çevirilməyə başladı. Onun təqdim etdiyi həyat tərzi, düşüncə səpkisi, amallar, bir sözlə yeni insan ideyası tədricən unudulurdu.

Peyğəmbərdən (s) sonra Əhli-Beytə (ə.s) mənsub olan imamlar cəmiyyətin seçiminə hörmətlə yanaşsa da, hadisələrin nə ilə nəticələnəcəyini gözəl anlayırdılar. Onlar bu prosesə kənardan bir müşahidəçi kimi baxıb biganə yanaşmasalar da, insanların azad seçiminə mane olan despotik addımlar da atmırdılar. Çünki bu onların missiyasına, həyat fəlsəfəsinə zidd idi. Həzrət Əli (ə.s) demişkən: “Sanki boğazımda bir sümük var - nə uda, nə də çıxarda bilirəm”. Onların əsas işi cəmiyyəti daim ekzistensional bir seçimlə təmin etmək idi. Lakin şovinist bir xalq Allahı şovinistləşdirməyə, tiran sülalə isə Allahı tiranlaşdırmağa cəhd edəndə bu seçim itməyə başladı. Artıq ərəb imperiyasının ideologiyası Peyğəmbər (s) məktəbinin protezinə çevirilməkdə idi. Məhz ekzistensional seçim şansını yenidən bərpa etmək üçün İmam Hüseyn (ə.s) Kərbəlanı yaratdı. Kərbəla ekzistensional seçim imkanı idisə, əzadarlıq bu seçimin nümayişidir. Bu, hansısa siyasi aksiya, yaxud dini ritual deyil, ölümə məğlub həyatla ölümə qalib həyat arasında bir seçimdir.

Kərbəlada hər iki cəbhədə ən yaxşı insanlar üz-üzə gəlmişdi. Bəli, ən yaxşı... Yezid qoşununun böyük əksəriyyəti Kufənin adlı-sanlı, əsil-nəcabətli, ədəbli və imanlı sayılan insanlarından ibarət idi. Lakin onları Kərbəlaya gətirən bu yaxşılığın arxasında gizlənən cılızlıq, tamahkarlıq, cəhalət və təkəbbür idi. Ona görə də bu qoşunda bütün mənfi arxetiplərə rast gəlmək olurdu. Saxta iman, saxta ideyalar, saxta həyat eşqi, saxta insansevərlik, saxta millətsevərlik, bir sözlə, hər şeyin saxtası bu orduda cəmləşmişdi. Onlar qəribə psixoloji hal yaşamaqda idilər, sanki istəmədən Kərbəlanın mənfi qəhrəmanlarına çevrilirdilər. Həqiqətən də onların Yezid tərəfdə yer almaları qeyri-səmimi və sönük həyatlarının məntiqi sonluğu idi. Onlar mənasız yerə südəmər körpəni qətlə yetirəcək, cəsədlər üzərində at çapacaq, yaxşılıq görəndə paxıllıqlarından od püskürəcək, hətta bir-birinin qanını içəcək qədər rəzil insanlar idi... Və Kərbəla hadisəsi dinlə pərdələnmiş bu rəzilliyi üzə çıxardı.

Bütün bunlar bizim cəmiyyətin bu günü ilə nə dərəcədə əlaqəlidir? Yuxarıda yazılanlar günümüzdə nə qədər aktualdır? Bizim həm fərdi, həm də ictimai rifah və tərəqqi yolumuz mədəni kimliyimizdə kodlaşdırılmış arxetiplərdən, yaşatdığımız mifik obrazlardan asılıdır. Eyni zamanda, şübhəsiz, qlobal dünyada mədəni transformasiyalar qaçılmazdır. Anlaşılmazlıq və münaqişə də bundan yaranır - mədəniyyətin forması ilə məzmunu arasında uyğunsuzluqdan. Zahirən mütərəqqi formalar heç də həmişə mütərəqqi məzmundan doğmur və ya əskinə. Bir sıra cəmiyyətlərin elmi-texniki inkişafı həyat eşqindən deyil, həyat sönüklüyündən doğur. Həyatı bütün gözəlliyi ilə zəngin və dolğun yaşaya bilməyənlər çalışırlar ki, onu kənar bər-bəzəklərlə yükləsinlər. Bu isə saxtakarlıqdan və insanı daha ağır psixoloji duruma salmaqdan başqa bir şeylə nəticələnmir. Bu, əyləncə vasitəsilə yoxluq acısını unutmaq cəhdidir. Bu, ölümə meyillənmədir - həyatı bioloji mövcudluğa, eşqi cinsi münasibətə, ədaləti saysız-hesabsız qanunlara, azadlığı sərgərdanlığa, əxlaqı ruhsuz təbəssümə, elmi məlumat toplusuna, insanı heyvana, ailə və ictimai bağlılıqları artıq yükə bərabər tutan bir yoldur. Bundan sonra nə gələcək? Yoxluq. Bu, Kərbəlada zahirən qələbə çalan Yezid qoşununun həyat məntiqi idi.

İmam Hüseyn (ə.s) qoşununun məntiqi isə ömür adlı qısa bir şansı bütün dolğunluğu ilə yaşamaq və nəticədə ölümə qələbə çalmaq idi. Bu kiçik dəstə də müxtəlif arxetiplərdən ibarət idi. Bu düşərgədə zəngin tacir, məşhur alim, adlı-sanlı ağsaqqal, qaradərili qul, yeni ailə qurmuş cütlük, yeniyetmə və uşaqlar, müxtəlif millət və qəbilələrin nümayəndələri eşq atəşində yana-yana elə yaşayırdılar ki, düşmən ordusundan bəziləri özlərini bu alova atmaq üçün tələsdilər. Böyük ordunu tərk edib xəcalətdən boynu bükük halda onlara tərəf gələnləri bu kiçik dəstə “Başınızı uca tutun!” deyib qarşılayırdı. Hansı məntiqlə böyük ordunu tərk edib ölümə məhkum bir dəstənin tərəfinə keçmək olar? Onları cəzb edən düşməni belə ağuşa ala bilən həyat hərarəti, ölümü və əsirliyi baldan da şirin bir həzzə çevirmək gücündə olan, pislikləri yandırıb-yaxan eşq cazibəsi idi. Günün istisini, susuzluğu, 30 minlik vəhşinin, yırtıcının mühasirəsini, bir sözlə təbii və qeyri-təbii məhdudiyyətləri yaracaq qədər aşıb-daşan həyat gücü zərrəcə vicdanı olan hər kəsi öz təsirinə alırdı. Bu, sərvətin və ictimai statusun əhəmiyyət kəsb etmədiyi bir cəmiyyət idi. Hamının bir-biri ilə mehriban olduğu, bir-birini sevdiyi, bir-birnə qarşı fədakar olduğu bir mühit bu cəmiyyətə hakim idi. İmam Hüseynin (ə.s) təşkil etdiyi bu “çadır şəhərciyi” əslində aman və məkan çərçivəsini aşaraq gələcək nəsillərə örnək ola biləcək bir cəmiyyət modeli idi. Bu şəhərciyin sakinlərinin şübhə və tərəddüdlərə yer verməyən aydın düşüncəsi, həyatın özündən, sadəcə var olmaqdan aldıqları sonsuz ləzzət, başıucalıq və ləyaqəti onları dünya və axirət qayğısından azad edə bilmişdi. Onları ancaq həyat eşqi birləşdirirdi - kamil insanla birlikdə yaşanan həyatın eşqi. Bu eşqi dadmaq üçün bütün çətinlikləri, bəlaları könül xoşluğu ilə qəbul etməyə dəyərdi. Və maraqlısı da budur ki, bu insanlar idealist kimi görünsələr də, əslində zənnimcə ən böyük praqmatik idilər. Nə bilmək olar, bəlkə də bəşəriyyət bu gün belə bir yaşam tərzi axtarışındadır və Kərbəla hadisəsi də məhz bu səbəbdən aktuallığını qoruyub saxlayır? Bu sualın cavabını zamanın axarına buraxaq...

Hacı Şahin Həsənli




# KƏRBƏLA HADİSƏSİNDƏ VƏTƏN SEVGİSİ

## Əqidəyə sədaqət nümunəsi

**Bu günlərdə İslam dünyasının bir çox xalqları tərəfindən Kərbəla hadisəsi bir daha yad edilir, şəhidlərin ruhuna dualar oxunur, faciədən çıxarılan dərslər nəzərdən keçirilir. Tanınmış filosoflardan Tomas Korlaylın dediyi kimi, "Kərbəla faciəsindən aldığımız ən gözəl dərs odur ki, Hüseyn və onun silahdaşları Allaha möhkəm bir imanla bağlanmışdılar. Onlar öz əməlləri ilə sübut etdilər ki, haqq ilə batil üz-üzə dayandığı bir məqamda batilin sayca üstün olmasının heç bir əhəmiyyəti yoxdur". Alman filosofu Marbani isə deyirdi: "Müsəlmanların mövcudluğu Hüseynin şəhadəti ilə bağlıdır. Ona görə ki, Hüseyn eşqi ilə yanan bir şəxs heç vaxt zilləti, köləliyi qəbul etməz".**

Bir sıra tarixçilərin, filosofların da məsələyə məhz bu kontekstdən yanaşması belə deməyə əsas verir ki, faciə ilə nəticələnən hadisənin mənəvi tərəfi daha böyük əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi Vüqar Babayevlə söhbətimiz də Kərbəla hadisəsinin mahiyyəti və bu faciənin başvermə səbəbləri barədə oldu. İmam Hüseyn inqilabı kimi tarixdə böyük iz qoyan hadisənin səbəbləri barədə danışan Vüqar Babayev dedi:

– Kərbəla hadisəsini təfsir edib həqiqi mahiyyətini başa düşmək olduqca çətindir. Tarixdə də bu barədə ətraflı məlumat verilməmişdir. Bu böyük hadisəyə yol açan amillərin mürəkkəbliyi səbəbindən hərə onu bir cür aydınlaşdırmağa, bəziləri də ondan sui-istifadə etməyə çalışmışdır.

Tarixdə qeyd olunanlara nəzər yetirsək görürük ki, İmam Hüseyn inqilabı haqqın, ədalətin, İslam dininin əsaslarının qorunması, baş alıb gedən haqsızlığın aradan qaldırılması naminə baş verib. Xilafətin və hökumətin irsi bir məsələ olmadığı, ancaq Allahın əmri və Peyğəmbərin vasitəsilə təyin olunan şəxsin rəhbər ola biləcəyi bu hadisənin mahiyyətini təşkil edir, xəlifəni həm də xalqın seçməli olduğu vurğulanır.

İmam Hüseyn ölkədə baş alıb gedən özbaşınalığa, haqsızlığa, əxlaqsızlığa qarşı inqilab etmişdir. O, vətəninin, müsəlmanların gələcəyini düşünmüş, öz həyatını haqq-ədalət yolunda qurban vermişdir. Əqidəyə, tutduğu haqq yola sədaqət nümunəsi göstərmişdir. Bu yolda göstərdiyi böyük fədakarlıq ilə yüz illər boyu insanların dərin sevgisini qazanmışdır.

– İslam alimləri Məhərrəm ayı, xüsusən də bu aydakı Aşura gününün hikməti barədə mühüm hədislərin olduğunu qeyd edirlər...

– Bəli, Peyğəmbərimiz tərəfindən Məhərrəm ayı "Allahın ayı" olaraq ifadə edilmişdir. Aşura günü isə Məhərrəm ayının 10-cu günüdür. Aşura gününün Allah qatında ayrı

bir yeri vardır. Bu gündə Cənabu-Haqq on Peyğəmbərinə on mükafat təqdim etmişdir. Bu ayda oruc tutmaq çox savabdır. Məhərrəm ayının digər aylar arasında ayrı bir yeri olduğu kimi, Aşura günü də digər günlər içində daha mübarək və bərəkətli gün kimi bilinməkdədir. "Qurani-Kərim"in "Fəcr" surəsində "On gecəyə and olsun" ifadəsi ilə Ulu Tanrı bu gecələrə and içərək onların üstünlüyünü və bərəkətini bildirmişdir. Peyğəmbərimizin hədislərində də bu günə bu adın verilməsinin hikməti, o gündə Cənabu-Haqqın on Peyğəmbərinə qeyd edəcəyimiz mükafatları lütf etməsindədir:

1. Allah Musa Peyğəmbərə Aşura günündə bir möcüzə lütf etmiş, dənizi yararaq Musa Peyğəmbəri və qövmünü xilas etmiş, Firon ilə ordusunu sulara qərq etmişdir.

2. Nuh Peyğəmbərin gəmisi Cudi dağının üzərində Aşura günündə dayanmışdır.

3. Yunis Peyğəmbər balığın qarnından həmin gün xilas olmuşdur.

4. Adəm Peyğəmbərin tövbəsi Aşura günü qəbul edilmişdir.

5. Yusif Peyğəmbər qardaşlarının atmış olduğu quyudan Aşura günü çıxarılmışdır.

6. İsa Peyğəmbər o gün dünyaya gəlmiş və o gün səmaya yüksəldilmişdir.

7. Davud Peyğəmbərin tövbəsi o gün qəbul edilmişdir.

8. İbrahim Peyğəmbərin oğlu İsmayıl Peyğəmbər o gün doğulmuşdur.

9. Yaqub Peyğəmbərin oğlu Yusif Peyğəmbərin həsrətindən bağlanan gözləri o gün görməyə başlamışdır.

10. Əyyub Peyğəmbər o gün şəfa tapmışdır.

Beləliklə, mənalı və qüdsi hadisələrin ildönümü olan bu mübarək gün və gecə səadət əsrindən bəri müsəlmanlar tərəfindən həmişə qeyd olunmuşdur. Bu günlərdə ibadətə daha çox zaman ayıranlar başqa günlərə nisbətdə daha çox xeyir tapmışlar. Cənabu-Haqqın bu günlərdə edilən ibadətləri, tövbələri qəbul edəcəyinə dair hədislər mövcuddur.

– Qeyd etdiklərinizdən belə aydın olur ki, Məhərrəm ayı və xüsusən Aşura günü təkcə müsəlmanlar tərəfindən deyil, həm də digər dinlərin nümayəndələri tərəfindən müqəddəs ay və müqəddəs gün hesab edilir. Bununla bağlı əsaslı faktlar varmı?

– Bunu təsdiq edən bir çox fakt vardır. Belə ki, Məhərrəm ayı və Aşura günü əhli-kitab olan xristian və yəhudilər tərəfindən də müqəddəs sayılarmış. Məhəmməd Peyğəmbər Mədinəyə hicrət etdikdən sonra orada yaşayan yəhudilərin oruclu olduqlarını öyrəndi və "Bu, nə orucudur?" – deyə soruşdu. Yəhudilər "Bu gün Allahın Musanı düşmənlərindən qurtardığı, Fironu dənizdə boğdurduğu gündür. Musa Peyğəmbər şükür olaraq bu gün oruc tutmuşdur", – dedilər. Aşura günü tək əhli-kitab arasında deyil, Nuh Peyğəmbərdən, İslamdan əvvəl – cəhalət dövründə də ərəblər arasında İbrahim Peyğəmbərdən bəri müqəddəs bir gün olaraq bilinmiş və həmin ay oruc tutulmuşdur. Aşura gününün mənəvi aydınlığı üzərində Kərbəla qaranlığı da görünməkdədir.

– Kərbəla hadisəsi bizə nəyi ifadə edir? Yəni bu hadisənin mahiyyətinə nəzər salsaq, buradan hansı nəticələri çıxara bilərik?

– Həqiqətən də, Kərbəla faciəsi müsəlman ümmətinin tarixinə kədərli, lakin eyni zamanda insanlara qeyrət, qürur bəxş edən bir hadisə kimi daxil olub. Kərbəla faciəsinin nəsillərin yaddaşında yaşaması, həzrəti Hüseynin həyat və mübarizəsinin yad edilməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, Hüseynin mübarizəsində vətən sevgisi, əqidəyə sadiqlik uğrunda səfərbərolma hikməti vardır. Bu mübarizə bədbinlik əhval-ruhiyyəsinin təlqini deyil, torpağa bağlılığın, işğal olunmuş ərazilərin azad edilməsi uğrunda fədakarlıq və dəyanətə çağırışın təcəssümüdür.

– Təəssüf ki, dini-mənəvi baxımdan çox əhəmiyyətli bir gün olan Aşura günündə bəzən insanların özlərinə xətər yetirmələrinin də şahidi oluruq. Dini nöqteyi-nəzərdən bunun hər hansı bir əsası varmı?

– Allah-Təala insana canı əmanət olaraq verib. Onu ancaq din, vətən yolunda fəda etmək olar. Keçmişdən bu günə qədər hər kəs bir cür İmam Hüseyn üçün fədakarlıq edir. Tövsiyə olunmur ki, insanlar bədənlərinə zəncir vurmaqla, baş yarmaqla qan çıxarsınlar. Bəzi insanlar bunu təsəlli xatirinə edirlər. Ancaq Aşura günü baş yarmaq, zəncir, sinə vurmaq və ya digər hər hansı lazımsız, əhəmiyyətsiz şeylər etməyin heç bir mənası yoxdur. Baş yarıb boş yerə qan tökməkdənsə, Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyinin və Dini Qurumlarla İş üzrə İdarəsinin rayon və şəhər məscidlərində təşkil etdiyi qanvermə aksiyalarında iştirak etmək daha məqsədəuyğundur.

Müsəlman dünyasında ilk dəfə olaraq bu addım Azərbaycanda atılıb. Biz məscidlərimizdə qanvermə aksiyası keçirməklə cəmiyyətə bir mesaj vermiş oluruq. Belə ki, verdiyimiz qan xalqımıza yardım xarakteri daşıyır. Qana ehtiyacı olan xəstələrə qanımızı verməklə onlara, bir növ, dəstək vermiş oluruq. Bununla da, Aşurada müxtəlif vasitələrlə bədəndən qan çıxarmağın əleyhinə olduğumuzu bir daha nümayiş etdiririk.

Qeyd etdiyimiz kimi, İmam Hüseyn haqq, ədalət yolunda şəhid olub. Aşura günü İmam Hüseynlə bərabər, xalqımız həm də torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olan vətən oğullarını da yad edir. İmam Hüseyn məktəbi elə bir məktəbdir ki, onu biz xalqa çatdırmaqla şücaət məktəbini əməli formada təqdim etmiş olarıq. Harada şəhidlik məqamı varsa, orada şücaətlik, vətən sevgisi var.

Rauf Əliyev



*Ahmet Taşgetiren:*

# KƏRBƏLANI xatırladım, içim yandı, qovruldu...

***Məhərrəmlik İslam tarixinin ən kədərli səhifələrinə şahidlik etdi. Və aşura günü, bütün İslam tarixinin ən böyük kədəri yaşandı.***

Kərbəlanı oxudum. İçim yandı, qovruldu.

Necə, necə, necə olur bütün bu işlər? İnsanlıq necə olur ki, belə insanlığından soyunur, canavarların törədə biləcəyi bir vəhşəti törədər?

İslam dünyasında necə olur, Peyğəmbərin nəvəsi, nəvəsinin uşaqları, ac qurdlardan daha vəhşi bir dəstənin ox, mizraq, qılınc zərbələri altında can verirlər?

Fərat çayından bir damla su içmələrinə icazə vermədən həm də...

Həm də kəsilmiş başları mizraq uclarına taxılıb gəzilir...

İnsan deyilən varlıq haralara sürüklənir belə?

Deyir ki, Allah Rəsulunun reyhan ətirli nəvəsi qarşısındakı peyğəmbər hüququndan azacıq nəsibli ola biləcəyini düşündüyü, Peyğəmbər xatirəsinə azacıq hörmət bəsləyə biləcəyini ümid etdiyi, ürək daşıdığını sandığı canavarlara:

“Ey insanlar! Soyumu söyləyin, mən kiməm?

Sonra özünüzə gəlin, nəfsinizi qınayın. Baxın, məni öldürməyiniz, hörmət bəsləməməyiniz sizə caizdirmi? Mən, Peyğəmbərinizin qızının oğlu deyiləmmi? Mən, Peyğəmbərinizin varisi və əmisi oğlunun oğlu deyiləmmi? Mən, hər kəsdən əvvəl Allaha iman edən və Peyğəmbərin risalətini təsdiq edən şəxsin oğlu deyiləmmi? Seyyid-uş Şühəda olan Həmzə, atamın əmisi deyilmi? Cəfəri-Təyyar əmim deyilmi? Peyğəmbərin mənim və qardaşım haqqındakı “Bu ikisi cənnət gənclərinin ağalarıdır” sözünü eşitməmisinizmi?

Əgər sözümü təsdiq etsəniz, bu söylədiyim sözlər bir həqiqətdir. Allaha and olsun ki, Allah Taalanın yalançıya qəzəb etdiyini və uydurduğu sözün zərərini özünə qarşı çevirdiyini bildiyim gündən bəri yalan danışmadım. Əgər məni yalançı hesab edirsinizsə, indi müsəlmanların arasında Peyğəmbərin əshabından olan kimsələr var; bunu onlardan soruşsanız onlar sizə deyər. Cabir ibn Abdullahi-Ənsari, Əbu Saidi-Xudri, Səhl ibn Sadis-Saidi, Zeyd ibn Ərkam və Ənəs ibn Malikdən soruşun, öyrənin; şübhəsiz onların hamısı, Rəsulullahın mənim və qardaşımın (Həsənin) haqqında buyurduğu sözü duymuşdur. Bu sözlər, sizi qanımı tökməkdən yayındırmırmı?

Mən və qardaşım haqqında Peyğəmbərin buyurduğu bu sözdə şübhəniz varsa mənim Peyğəmbərinizin qızının oğlu olduğumda da şübhə edirsiniz? Çox təəssüflər! Görəsən öldürdüyüm adam və ya zərər vurduğum bir mal yaxud (sizə vurduğum) bir yara qarşılığındamı məni cəzalandırmaq istəyirsiniz?

Ey insanlar! Allaha and olsun bundan sonra süvarinin miniyə minib meydanda gəzdiyi müddətdə dünyada qalarsınız. Bu sözü atam, cəddim Rəsulullahdan mənə nəql etdi. Bilin ki, Hüseynin ümidi ancaq uca Allahadır. Çünki həyatı Allahın qüdrəti əlində olmayan şəxs yoxdur.”

Ürəklər ürpərməz. Ürəklərin içi boşalmışdır sanki... Orada, sinələrinin altında ürək yerinə bir qaya parçası vardır sanki...

Oxlar, qılınclar və mizraqlar danışır ürəklərin yerinə... qan danışır. Söz, vəhşiliyə verilib.

Həzrət Hüseynlə birlikdə Mədinədən gələnlər bir-bir şəhid olurlar. Hər birinin şəhadəti ayrı bir dastandır. Onlardan biri Əbuzər Qəffarinin köləsi Covndir. Covn, İmam Hüseyinin hüzuruna çıxaraq meydana girmək üçün icazə verməyini istəyir.

Həzrəti Hüseyn: “Ey Covn, deyir, sən əminamanlıq və

asayiş ümidiylə bizimlə buraya qədər gəldin; indi özün istəyən yolla gedə bilərsən."

Covn həzrət Hüseynin (ə) ayaqlarına qapanaraq belə deyir: "Ey mənim imamım! Mən pis qoxulu, əsl-nəsli olmayan və rəngi qara bir köləyəm. Gözəl qoxulu, şərəfli əsl-nəsli və bəyaz rəngli olmağım üçün cənnətə girməyimə icazə ver. Allaha and olsun ki, mənim qara qanım siz Rəsulullahın (s) Əhli-beytinin pak qanlarına qarışana qədər sizdən əl çəkməyəcəyəm".

Bundan sonra həzrət Hüseyn Covna icazə verir. Covn meydana girir, vuruşur və şəhid olur. Həzrət Hüseyn onun başının üstündə durub buyurdu ki: "Allahım! Onun üzünü ağ et, qoxusunu gözəlləşdir, onu saleh şəxslərlə həşr et və onu Muhəmməd və Əhli-Beytiylə həşr et".

Artıq növbə Əhli-Beytindir. Əhli-Beytdən savaş meydanına ilk çıxan həzrət Hüseynin böyük oğlu Əli Əkbər olur. Əli Əkbər, nəvələr içində Rəsulullaha ən çox oxşayanıdır. O döyüşə gedərkən həzrət Hüseyn "Allahım! Şahid ol ki, xalq içində Peyğəmbərin Muhəmmədə ən çox oxşayanı bu qövmün üzərinə gedir. Biz Peyğəmbəri görmək istəyəndə ona baxırdıq. Allahım!" deyərək yola salır. Əli Əkbər parça-parça edilir vəhşilər tərəfindən.

Həzrət Həsənin oğlu Qasım, döyüşə atılır və şəhid olur. Onda 13 yaşında idi.

Heç bir şey, heç bir şey ürəklərini yumşaltmaz bu vəhşilərin.

Sonra... Heç anlatılamayacaq şeylər oldu. Sovruldu göylərə Şəhid Hüseynin və Əhli-Beytin müəzzəz qanları...

Ondan sonra susmayan bir ağı vardır möminlərin könlündə... Bir yara... Bir sancı... Bir yarğan, bir uçurum...

Bir də dərs olsa keşkə...

Nələri və necə unudur insanlar, gözləri və könüllərini qan tutanda... Nələri və necə ayaqlayır... Peyğəmbər əmanətinə qılınc çəkmək... Bu necə bir işdir! Və Peyğəmbərin (s) axirətə köçməsindən yalnız yarım əsr sonra... Peyğəmbər nəslinin hələ yer üzündə yaşadığı bir vaxtda! Bu necə olur?!

Bir ibrət dərsi! İqtidar həvəsini, qəbilə-qövm mənsubiyyətini müsəlmanlığın, müqəddəs dəyərlərin, Peyğəmbər xatirəsinin önünə keçirməmək üçün diqqətli olmaq!...

/irfandergisi/ Ahmet Taşgetiren



# Ey xanım, nikah zamanı özünü sığortala!

***Bu məqaləni yazmağa səbəb müsəlman xanımların hüquqlarının tez-tez tapdanması oldu. Belə ki, onlar ailə qurarkən nikah və talaq (boşanma) məsələlərində lazımi şərtləri bilmədikləri üçün problem yarananda çıxış yolu tapa bilmir, qalan həyatlarını zülmətdə və peşimançılıqda keçirməyə məcbur olurlar. Sonrakı peşimançılıq isə fayda vermir. Lakin bu zülmətə yuvarlanmamaq üçün müqəddəs İslam dinimiz həll yollarını çox aydın surətdə açıqlamışdır.***

Bildiyimiz kimi hazırkı dövrümüzdə ailələrdə yaşanan qlobal problemlərdən biri də talaq – yəni, boşanma məsələsidir. Azərbaycanda isə bu problem getdikcə artmaqdadır. Talaq - halal bir əməl olmasına baxmayaraq, Allah-Təala dərgahında xoşagəlməz bir əməl sayılır. Qurani-Kərimin 65-ci surəsinin adı "Talaq"dır. Bu kökdən olan kəlmələr, Qurani-Kərimdə 23 dəfə zikr olunmuşdur.

Əlbəttə ki, Allahın yanında mənfur o talaqdır ki, üzürlü bir səbəb olmadan edilmiş olsun, amma əgər, bir kəsin talaq üçün məntiqi dəlili olsa, nifrət olunmayacaq. Əksinə, belə yerlərdə talaq - çıxış yoludur. Lakin çox vaxt kişi öz həyat yoldaşına əziyyət versin deyə, ona talaq vermir və bu da xanımın ömür boyu başsız qalmasına, əzab-əziyyət içində yaşamasına səbəb olur. Yaxud öz ailəsini atıb Rusiyaya və ya uzaq ölkələrə çıxıb gedən kişi başqa bir həyat yaşamını seçərək öz xanımından tamamilə uzaqlaşır və ona zülm etməklə bərabər Allahın ayəsini məsxərə etmiş olur. (Bax: Bəqərə surəsi, ayə 231). Nəticədə talağı verilməmiş qadın başqa birisilə həyat qura bilməz və dinimiz tərəfindən onun başqasına ərə getməsi qadağandır. Xanımların bu problemlərlə üzləşməməsi üçün dinimiz çıxış yollarını öyrədir.

### Məsələnin çıxış yolları:

1) Qadın ailə qurmazdan öncə özünü sığortalaya bilər. Belə ki, nikah oxunmamışdan qabaq xanımın əqdin kənarında şəriət qanunlarına zidd olmayan bir neçə şərti qoymağa ixtiyarı vardır. Məsələn:

-Mən səninlə ailə qurmağa hazıram, bu şərtlə ki, əgər mənə nahaqdan zülm etsən, mən sənin tərəfindən talağın icrasında vəkiləm.

-Mən səninlə ailə qurmağa hazıram, bu şərtlə ki, əgər mənə ibadət etməyə mane olsan, mən sənin tərəfindən talağın icrasında vəkiləm.

-Mən səninlə ailə qurmağa hazıram, bu şərtlə ki, əgər mənə hicab bağlamağı qadağan etsən, mən sənin tərəfindən talağın icrasında vəkiləm.

-Mən səninlə ailə qurmağa hazıram, bu şərtlə ki, əgər məni altı aydan artıq tərk edib getsən, mən sənin tərəfindən talağın icrasında vəkiləm və s.

Beləliklə, xanımlar ailə qurarkən ehtiyatlı olmalı və necə deyərlər, qarşıya bir sıra müşküllərin çıxmaması üçün onlar öz hüquqlarından xəbərdar olmalıdırlar.

2) Əgər kişi müəyyən səbəblər (inadkarlıq, düşmənçilik, itkin düşmə və s.) üzündən xanımına talaq verməzsə, onda xanım şəriət hakiminə (müctehidə) və ya onun nümayəndəsinə müraciət etməlidir. Şəriət hakiminə hamının əli çatmadığı və bu məsələ çox çətin olduğu üçün bir çox ölkələrdə, o cümlədən Azərbaycanda da onun nümayəndəsi mövcuddur. Həmin nümayəndəyə müraciət etməklə talaq baş tuta bilər. Bir az da ətraflı desək, xanım ya məktub vasitəsilə, ya da hüzuri surətdə nümayəndəyə müraciət etməli və ailəsində olan bu müşkülü ona bildirməlidir. Nümayəndə məsələni araşdırandan sonra bu müşkülü həll etməlidir.

### MÜHÜM BİR MƏTLƏB

Bildiyimiz kimi, şəri nikah (kəbin), dövlət nikahından (VVAQ - ZAQS) fərqlidir. Belə ki, əgər müsəlman bir ailə şəri nikahla evlənibsə, boşanmaq istəyərkən şəri talağın oxunması vacibdir. Əks halda, onlar illərlə ayrı yaşasalar belə, yenə də həqiqi ər-arvad sayılırlar. Amma dəfələrlə şahidi olmuşuq ki, bilməməzlik üzündən həm kişi, həm də qadın şəri talaq oxumadan bir başqası ilə kəbin kəsdirir və özlərini bir-birinə həqiqi ər-arvad hesab edirlər. Yəni, əvvəlki ərindən şəri talaq almamış bir qadın, müəyyən müddətdən sonra başqa bir kişi ilə kəbin kəsdirir və beləliklə, onlar ər-arvad kimi yaşamağa başlayırlar. Həqiqətdə isə onlar bir-birinə naməhrəm sayılır və böyük bir günaha (zinaya) mürtəkib olurlar! Bu günahdan qurtulmaq üçün onlar təcili surətdə ayrılmalı və tövbə etməlidirlər. Hətta tövbə etdikdən sonra belə, onlar əbədi olaraq bir-birinə naməhrəm sayılırlar və heç vaxt evlənə bilməzlər. Yəni, əgər qadının həqiqi əri ona talaq versə belə, o qadın zina etdiyi həmin naməhrəm kişi ilə artıq nə şəri nikah oxutdura bilər və nə də evlənə bilər.

**Qeyd:**

Talaqdan sonra xanımlar dərhal ailə qura bilməzlər. Bunun *üçün onlar iddə gözləməlidirlər. İddə - bir müddətdir ki, boşanmış, yaxud əri ölmüş qadın həmin müddəti gözləmədən ərə gedə bilməz. İddə, boşanmış qadın üçün -3 ay, əri ölmüş qadın üçün isə 4 ay 10 gündür. Daha ətraflı məlumat almaq üçün: Qurani-Kərim, Bəqərə surəsi, 228, 230, 232, 234, 236 və 237-ci ayələr, həmçinin Əhzab surəsi, 49-cu ayə, Talaq surəsi, 1-ci ayə, Təhrim surəsi, 5-ci ayə və "Şəriət məsələləri", kitabının "talağın iddəsi" – bölməsi.*

İlahiyyatçı Rövşən Əhmədzadə

# Aşura günü İmam Zamana (ə) qoşulmaq üçün fürsətdir

İmam Rza (ə) səhabələrinin birindən soruşur: "Ey Şəbibin oğlu, bu gün bilirsənmi nə günüdür?" Səhabə cavabında deyir: "Bəli, bu günlər Məhərrəm günlərindəndir, İmam Hüseynin (ə) Aşurasının baş verdiyi günlərdəndir". İmam Rza (ə) ardıyca buyurur: "Bu gün bütün duaların qəbul olduğu günlərdəndir".

Bu gün o günlərdəndir ki, həzrət Zəkəriyyə peyğəmbər (ə) dua edib Allahdan övlad istədi. Tarixə nəzər salsaq və Quran qissələrinə baxsaq görərik ki, həzrət Zəkəriyyə (ə) elə bir peyğəmbərlərdən idi ki, yaşı keçmişdi, amma övladı olmurdu. Aşuradan qabaq Məhərrəm günlərinin birində Zəkəriyyə peyğəmbər oruc tutub Allahdan övlad istədi. Allah-Taaladan nida gəlir: "Sənə bir oğlan bağışladıq ki, adı Yəhyadır". Buna görə deyirlər ki, Məhərrəm günlərində insanlar oruc tutsalar, savabı çoxdur. Əlbəttə, Aşura günündən başqa, çünki Aşura günü oruc tutmaq məkruhdur. Dua etsələr, duaların qəbul olan günləri olduğu üçün diləkləri yerinə yetər. İmam Hüseynin (ə) bərəkətlərindəndir ki, insan oruc tutsa və dua etsə, duası qəbul olar, inşallah.

İmam Rza (ə) sözünün davamında buyurur ki, ey Şəbibin oğlu, bu gün sevinc günü deyil. Düzdür İmam Hüseynə xatir Allah sənin duanı qəbul edər. Amma unutma ki, bu gün İmam Hüseynin - mənim cəddimin başını kəsdilər. Onun nəslindən olan 17 gənci qətlə yetirdilər. Bu hadisəyə dözməyən 4 min mələk yer üzərinə endi ki, İmam Hüseynə yardım etsinlər. Amma gecikdilər. Buna görə də, özlərini toza bulaşdırdılar, qəmləndilər, əza saxladılar və özlərinə söz verdilər ki, İmam Zaman (ə) zühur edənə qədər bu şəkildə qalsınlar və İmam Zaman zühur edən vaxt onun dostlarından, köməkçilərindən olsunlar. Şüarları da bu oldu ki, "Ey Hüseynin intiqamını alanlar". Yəni əhd edirlər ki, İmam Zamanın dəstəsinə qoşulub onun əsgərlərindən olacaqlar, amma İmam Hüseynin intiqamını almaq üçün. Çünki Aşura günü gecikmişdilər, amma İmam Mehdinin (ə) zamanında intiqam alacaqlar.

Mahir Məmmədov



# Təsvil

**Allah insanları yaradanda batini hisslərində yaxşılığa qarşı meyilli, pis işlərə qarşı isə həvəssiz olaraq yaratdı. Heç kim pis insan olmaq istəməz. Əgər “ Ədalətsiz” insana, “Sən ədalətsizsən” desələr, əlbətdə ki, narahat olar. Bu, Allahın insanlar içərisində yaratdığı hisslərdən qaynaqlanan bir haldır. Əgər insan pis işin pis, yaxşının isə, yaxşı olduğunu qəbul edirsə, alqışa layiq bir xasiyyətdir və bu dəyərli xüsusiyyəti qorumaq olduqca önəmlidir.**

Amma təəssüflər olsun ki, bir tərəfdən nəfsani istək və uzun-uzadı arzularımız, digər tərəfdən isə şeytanın vəsvəsələri, yaxşıya yaxşı, pisə isə, pis baxmağımıza maneələr törədir. Yəni bir çox hallarda, hər hansı bir şəxsi səbəb və maraqlara görə yaxşı və pisi bir-birindən ayıra bilmir və ya ayırmaq istəmirik. Nəticə etibarı ilə bilərəkdən və ya bilmədən başqalarına zülm edir və həm, mənəvi inkişafımızın qarşısını alırıq.

Əgər bütün işlərimizi gözdən keçirib, analiz etmədən düzgün iş hesab etsək, şeytan öz vəzifəsini icra edəcək. Bir müddət keçdikdən sonra, günahlarımızı da, doğru və normal bir iş hesab edəcəyik. Şeytan da bizə günahlarımızın düz iş olduğunu pıçıldayaraq, bizə daxili və aldadıcı rahatlıq verməyə çalışacaq. Bu hal insanda mənəvi bir faciədir. Yəni əgər insan özünü heç bir zaman yalnış, xətalı və günahkar bilməsə, eləcə də, bütün davranışlarının düzgün olduğuna inansa, əslində bu bədbəxtçilikdir.

Yazının adı “Təsvil”-dir. Təsvil ərəb sözüdür. İnsanın pis işlərini, yaxşı iş kimi hesab etməsi, təsvil adlanır. Şeytan insanın pis işlərini onun zehnində yaxşı iş kimi göstərməyə çalışır və əgər o, daim öz pis əməllərini düzgün addım kimi hesab etsə, əslində “Təsvil” xəstəliyinə düçar olar. Bu vaxt o, törətdiyi zülm, günah, cinayət və digər yalnışlıqları, doğru bir addım kimi qəbul edər və özünü günahkar hesab etməz.

Quran və hədislərə müraciət etsək, görərik ki, dini mətnlərdə də, bu barədə bir çox sözlər yazılıb. Nümunə olaraq, Yusif peyğəmbərin (ə) əhvalatındakı ayəni misal gətirmək olar. Belə ki, Yusif peyğəmbərin (ə) qardaşları, onu quyuya atdıqdan sonra, köynəyini heyvan qanına batıraraq, atası Yəquba (ə) göstərib, “ Yusifi canavar yedi” deyəndə, həzrət Yəqub (ə) övladlarının yalan söylədiyini başa düşdü və onlara dedi: ...

“Xeyr (heç də dediyiniz kimi deyildir), sizin öz nəfsiniz sizi bu işə sövq etmişdir (çirkin əməlinizi sizə gözəl göstərmişdir). Mənə yalnız gözəl (tükənməz, dözümlü) səbr gərəkdir. Dediklərinizdən (Yusif barəsində dediklərinizin yalan olduğunu sübut etməkdən) ötrü ancaq Allahdan kömək diləmək lazımdır!” (Yusuf, 18).

Ayədə “Təsvil” kəlməsi işlənib və məlum olur ki, şeytanın insanları aldatdığı yollardan biri də, elə təsvildir.

Və ya başqa bir surənin ayəsində Allah-taala buyurur: Hidayət yolunu tanıdıqdan sonra (haqdan dönüb) geriyə üz tutanlara şeytan (günah işləri) gözəl göstərdi və onlara uzun ömür vəd etdi. (Muhəmməd,25).

Təsvil mövzusuna dair bir çox hədislər də var ki, yazını uzatmamaq üçün o hədislərdən yalnız birini gətiririk.

Bir gün Peyğəmbər (s) xütbələrinin birində, üzünü müsəlmanlara tutub, buyurdu: Elə bir gün yetişəcək ki, sizin cavanlarınız yalnış yollara düşəcək, böyükləriniz isə gəncləri pis işlərə həvəsləndirər, yaxşı işlərdən isə çəkindirəcəklər. Bu vaxt xütbəni dinləyənlərdən biri ayağa durub, təəccüblə “ Ey Allah Rəsulu! Həqiqətən də, belə olacaq?” deyə soruşanda, Allah Rəsulu (s) buyurdu: Bəli, bundan da pis olacaq. Elə bir zaman gələcək ki, siz haqqı batildən, pis işi isə, yaxşı işdən ayırd etmə qabiliyyətini əldən verəcəksiniz. Sonda elə bir hala düşəcəksiniz ki, sizin baxışınızda yaxşı işlər pis, pis işlər isə yaxşı iş kimi görsənəcək.

Oxuduğumuz hədis və Quran ayələrindən belə nəticəyə gəlirik ki, şeytan bizi aldadaraq, hətta günah işlərimizi də düz iş kimi göstərə bilər. Nəticədə isə, həm özümüzə və həm də ətrafımızdakılara zülm etmiş olarıq.

“Təsvil” xəstəliyindən uzaq olmaq istəsək, Allahın bizə bəxş etdiyi pak vicdanımıza müraciət etməliyik. Yəni bir çox ciddi işlərə addım atmadan, həmin işi daxili vicdanımızla qarşı-qarşıya qoymalıyıq. Əgər vicdanımız bu işin doğru bir iş olduğunu qəbul etsə, rahat şəkildə o işi icra edə bilərik. Yox əgər vicdanımız həmin işin yalnış bir iş olduğunu təsdiqləsə, gərək o işdən uzaqlaşaq.

Peyğəmbər (s) buyurur: Haqq və batil bir-birinə bənzəməz. Hər bir haqq, bir həqiqətə söykənir və hər bir doğru sözün üzərində bir nur var. Əlbəttə ki, həmin nuru yalnız insanın qəlbi kəşf edə bilər.

Bunu da unutmamalıyıq ki, əgər insan davamlı şəkildə günah etsə və günahlarına görə peşman olub, tövbə etməsə, Allahın ona bəxş etdiyi pak və sağlam vicdanı da əldən verər və nəticə etibarı ilə, doğruları yalnış, yalnışları isə, doğru görər. Bununla da, həmin şəxs çox rahat bir şəkildə “Təsvil”-ə düçar olar.

Pak vicdanını günah və inadkarlıqla məhv edən insanlar barədə Qurani-kərimdə bir çox ayələr var. Həmin ayələrdən biri, Bəqərə surəsindədir. Belə ki, Allah-taala inadkar, qəlbi möhürlənmiş və haqqı qəbul edə bilməyən kafirlərin barəsində buyurur: (Onlar) kar, lal və kor olduqlarına görə (doğru yola) qayıtmazlar. (Bəqərə,18).

Kərbəlayi Elçin Əliyev